

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın



4

SƏS

№ 065 (6748)

15 aprel 2023-cü il.
Qiymәti 60 qәpik

# "Strateji tərəfdaşlığa doğru uğurlu addımlar atılır"



*"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bosniya və Herseqovinaya səfəri və səfər zamanı bir çox sənədlərin, xüsusilə, "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin imzalanması dövlətimizin dünya ölkələrinə açıq olduğunu, əməkdaşlığa böyük önəm verdiyini bir daha göstərir.*

# Qərbin xain Türkiyə planı




9

*Türkiyə seçkilərə hazırlaşır. Bir yer uğrunda mübarizə aparan namizədlərin sayı 4 olsa da, onların arxasında yüz milyonlar var. Soruşa bilərsiniz ki, Türkiyədə təxminən 85 milyon insan yaşadığı halda yüz milyonlar haradan çıxdı. Yox, səhv eşitmədiniz, məhz 100 milyonlar, çünki seçkilərin nəticələrində marağı olanlar təkcə Türkiyə vətəndaşları deyil, qardaşının gələcəyini düşünən, inkişaf etməsini istəyən Azərbaycan da var.*

## Azərbaycan -Türkiyə qardaşlığı bütün dünya üçün nümunədir!



3

## Girov hərbçimizə qarşı amansız qəddarlıq: beynəlxalq aləm yenə susur (?!)



7

## "Ermənistan Azərbaycana qarşı bu təxribatı Qərbin sifarişi ilə təşkil edib"



13

## Aqrar sığorta: üstün cəhətləri nədir?



16

## Ailə qurarkən yaş fərqi önəmlidir?



16

# “Strateji tərəfdaşlığa doğru uğurlu addımlar atılır”



*“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bosniya və Herseqovinaya səfəri və səfər zamanı bir çox sənədlərin, xüsusilə, “Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə”nin imzalanması dövlətimizin dünya ölkələrinə açıq olduğunu, əməkdaşlığa böyük önəm verdiyini bir daha göstərir. Azərbaycan xarici siyasətində Balkan ölkələri ilə münasibətlərin genişləndirilməsinə xüsusi diqqət göstərməsi səbəbsiz deyildir.*

Bu ölkələr Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində irimiqyaslı layihələri həyata keçirən Azərbaycanın enerji ixracı şəbəkələrinin əsas halqaları kimi dəyərləndirilə bilər. Məhz buna görə Azərbaycanın Balkan ölkələri ilə münasibətlərində Bosniya və Herseqovina ilə əlaqələrin genişləndirilməsi mühüm əhəmiyyətə malikdir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri xüsusilə vurğulayıb ki, bu ölkə ilə imzalanmış Bəyannamə və sənədlər, keçirilən görüşlər, aparılan müzakirələr heç şübhəsiz, ölkələr arasında münasibətlərin inkişafına dəstəkdir və ölkələri bir-birinə daha da yaxınlaşdıracaqdır.

“Siyasət, iqtisadiyyat və ticarət, müdafiə və təhlükəsizlik, təhsil və mədəniyyət üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər hər iki ölkənin milli maraqlarına xidmət edir və strateji tərəfdaşlığa öz töhfələrini verəcəkdir. Çünki bu sənədlər sağlam münasibətlərin təməli üzərində imzalanmışdır. Belə ki, Bosniya və Herseqovina son illərdə Azərbaycanla münasibətlərin yaxşılaşdırılması üçün təşəbbüslərini əsirgəməmiş və beynəlxalq tədbirlərdə dövlətimizin haqlı mövqeyini dəstəkləmişdir. 44 günlük müharibə günlərində bu daha aydın nümayiş etdirildi və bu ölkənin dövlət nümayəndələri, siyasətçiləri dövlətimizə dəstək ifadə edən bəyanatlar səsləndirməklə haqlı mübarizəmizə haqq qazandırdılar.



Çətin günlərdə Azərbaycanın yanında olduğunu və onun haqlı qələbəsini alqışlayan bir ölkə ilə əməkdaşlığı möhkəmləndirmək əlbəttə ki, həm bu günümüz, həm də gələcəyimiz üçün faydalıdır. Bunu mətbuata bəyanatında cənab Prezident İlham Əliyev bir daha ifadə edərək demişdir: “Bu gün isə bizim münasibətlərimizin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar, qeyd etdiyim kimi, yeni imkanlar açır. O cümlədən bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir”. Bu səfər həqiqətən də bir daha, Azərbaycanın dünyada artan nüfuzunun və xarici siyasətdə uğurlarının, ilk növbədə Azərbaycan Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasətinin, sülhə, əmin-amanlığa, təhlükəsizliyə böyük önəm verməsinin nümunəsi kimi qiymətləndirilməlidir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

## Rəsmi xronika

Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Prezidentin digər Sərəncamı ilə Adil Kərimli Azərbaycanın mədəniyyət naziri təyin edilib.

* * *

Məcnun Qadir oğlu Məmmədov Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

* * *

Audiovizual Şuraya üzvlər təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, Xəlilov Aslan Xası oğlu və Məmmədov İsa Rəhman oğlu Audiovizual Şuranın üzvləri təyin edilib.

# “Ermənistan regionda vəziyyətin qəsdən gərginləşməsinə yönəlmiş siyasət yürüdür”



*Ermənistan hakimiyyətinin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, eləcə də daxili işlərinə müdaxiləyə yönəlmiş ritorikasının güclənməsi ciddi narahatlıq doğurur.*

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, bu fikirləri Milli Məclisin sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində aprelin 14-də MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 55-ci plenar iclasında çıxışı zamanı səsləndirib.

O qeyd edib ki, Ermənistan götürdüyü öhdəliklərin əksinə olaraq hələ də öz silahlı qüvvələrini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən tam çıxarmayıb. Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın hərbi qulluqçusu hələ də Azərbaycan ərazisindədir. Həmçinin Ermənistan Laçın yolundan minaların, hərbi texnikanın və silahların daşınması, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində şəxsi heyətin rotasiyası, habelə Azərbaycanın qanunsuz istismar edilmiş faydalı qazıntılarının Ermənistana daşınması üçün istifadə edir.

Parlament sədri diqqətə çatdırıb ki, Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin 2022-ci il dekabrın 12-dən başlayaraq Laçın-Xankəndi yolunda keçirdikləri dinc aksiya məhz buna qarşı yönəlib. Laçın yolu yalnız humanitar məqsədlər üçün istifadə olunmalıdır. Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin 6 mindən çox nəqliyyat vasitəsinin, tibbi yardıma ehtiyacı olan şəxslərin, humanitar yüklərin Laçın yolundan maneəsiz keçməsi sübut edir ki, Ermənistanın guya bu yolun bağlanması, qondarma “humanitar fəlakət” barədə iddiaları tamamilə əsassız və yalandır.

Sahibə Qafarova vurğulayıb ki, Laçın yolunun Ermənistan-Azərbaycan sərhədində sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması barədə Azərbaycanın təklifi bu yolun istifadəsində şəffaflığı təmin edəcək. Lakin erməni tərəfi bunda maraqlı deyil və təklifi qəbul etmir. Həmçinin üçtərəfli Bəyanata uyğun olaraq, Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri hələ də yerinə yetirmir.

Milli Məclisin sədri Sahibə Qafarova beynəlxalq təşkilatları Ermənistanın bir neçə gün əvvəl sərhəddə itkin düşmüş iki Azərbaycan hərbçisinə qarşı işgəncə və zorakılığını araşdırmağa və ona müvafiq qiymət verməyə çağırıb.

Parlamentin sədri diqqətə çatdırıb ki, bir neçə gün əvvəl Ermənistan sərhəddə itkin düşmüş iki Azərbaycan hərbçisini saxlayıb. Dərhal sosial şəbəkələrdə onlara münasibətdə fiziki işgəncəni və qeyri-insani rəftarı göstərən videogörüntülər yayılıb. Müvafiq beynəlxalq təşkilatlar sözügedən zorakılığı araşdırmalı və ona lazımi qiymət verməlidirlər.

Sahibə Qafarova bildirib ki, Ermənistanın Avropa İttifaqının missiyasının bu ölkədə olmasından sui-istifadə etməsi və vəziyyətin qəsdən gərginləşməsinə yönəlmiş siyasət yürütməsi aydın müşahidə olunur.

Milli Məclisin sədri deyib ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri Azərbaycan-Ermənistan sərhədi boyunca və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində atəşkəs rejimini pozmaqda davam edir. Bu da insan tələfatına səbəb olur. Sahibə Qafarova üç gün əvvəl Ermənistanın sərhəddə növbəti hərbi təxribat törətdiyini və nəticədə üç azərbaycanlı hərbçinin həlak olduğunu diqqətə çatdırıb.




# Azərbaycan -Türkiyə qardaşlığı bütün dünya üçün nümunədir!

*Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti qardaş Türkiyədə səfərdədir*




***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti qardaş Türkiyədə səfərdədir. YAP nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev daxildir.***










Nümayəndə heyəti əvvəlcə aprelin 13-də Bursa şəhərinə səfər edib. Bursa Böyükşəhər Bələdiyyəsinin binasında keçirilən görüşdə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala və Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaşın iştirak etdikləri görüşdə Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin səfərinin dostluq, qardaşlıq və həmrəylik örnəyi olduğu vurğulanıb.

Efkan Ala bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sayəsində Türkiyə-Azərbaycan münasibətləri ən yüksək səviyyəyə çatıb. İki ölkə arasındakı qardaşlıq münasibətlərinin bütün dünya üçün nümunə olduğunu deyən Efkan Ala diqqətə çatdırıb ki, dostluq və əməkdaşlıq, həyata keçirilən beynəlxalq layihələr böyük bir coğrafiyaya sülh, inkişaf və rifah gətirib. O, mayın 14-də Türkiyədə keçiriləcək seçkilərin önəmindən bəhs edib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident İlham Əliyevin "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır" fikrini xatırladaraq, iki qardaş dövlətin birliyinin əbədi və sarsılmaz olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan-Türkiyə qardaşlığı Prezident Rəcəb Tayyib Ərdoğanın qardaş ölkəyə rəhbərliyi dövründə daha da dərinləşib. İşğal altındakı torpaqlarımızın azad edilməsi üçün aparılan 44 günlük Vətən müharibəsində bir millət, iki dövlət prinsipinə layiq mövqe nümayiş etdirildi. Qardaş Türkiyə Azərbaycana böyük siyasi və mənəvi dəstək verdi.

Bursa Böyükşəhər Bələdiyyəsinin sədri Alinur Aktaş qonaqlara şəhər haqqında ətraflı məlumat verib. Bildirib ki, Türkiyədə özünəməxsus xüsusiyyətləri ilə seçilən bölgələrdən biri də Bursadır. Bu şəhər turizm, kənd təsərrüfatı, mədəniyyət kimi mühüm sahələrdə böyük imkanlara malikdir. O, həmçinin Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını işğaldan azad etməsindən qürur duyduqlarını dedi. Bursanın 2022-ci ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı olduğunu xatırladan bələdiyyə sədri keçirilən tədbirlər çərçivəsində qardaş Azərbaycandan nümayəndə heyətlərinin gəldiyini xatırladıb. Alinur Aktaş Türk Dünyasının Mədəniyyət Paytaxtı estafetinin Şuşaya verilməsindən qürurlandıqlarını bildirib. O, füsunkar mənzərəsi ilə seçilən Şuşanın Türk Dünyasının Mədəniyyət Paytaxtı çərçivəsində təqdim etdiyi rəngarəng proqramları ilə dünyanın hər yerindən turistləri cəlb edəcəyini vurğulayıb.

Sonra YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Bursa Böyükşəhər Bələdiyyəsinin tarixi binasının xatirə kitabına ürək sözlərini yazıb. Bildirilib ki, 1880-ci ildə inşa olunan bu bina Türkiyənin ən qədim bələdiyyə binasıdır. Bursa Təyyarə Mədəniyyət Mərkəzi ilə tanış olan nümayəndə heyəti sonra şəhərlə tanış olub, yerli sakinlərlə söhbət edib. Söhbət əsnasında bildirilib ki, Azərbaycan və Türkiyə tarix boyu bir sıra sınaqlarla üzləşsə də, həmin çətinliklərdən mətanətlə çıxıb. Ən qürurlandırıcı məqam odur ki, dövlətlərimiz və xalqlarımız bu çətinliklərin öhdəsindən gəlmək üçün bir-birinə əsl qardaşlıq dəstəyi göstərib.

# "Sağlam gənclik sağlam ailənin təminatıdır"






Aprelin 14-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının, partiyanın Quba rayon təşkilatının və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə interaktiv təlim keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Quba şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Tədbirdə YAP-ın Quba-Xaçmaz iqtisadi zonası üzrə rayon təşkilatlarının üzvü olan gənclər iştirak ediblər.

Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova, Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, RİH başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyanın sədri Tariyel İbrahimov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov və "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Röya Bənənyarlı müntəzəm olaraq maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

Qeyd olunub ki, müasir Azərbaycan ailəsinin qarşılıqlı hörmət, sağlam təməllər üzərində qurulmasının əsas səbəblərindən biri də tarixin süzgəcindən keçmiş ailə dəyərlərinin yaşadılması və nəsildən-nəslə ötürülməsidir. Ailə sağlam cəmiyyətin, güclü dövlətin formalaşması və inkişafında mühüm vasitədir. Sağlam ailə mühitində tərbiyə alaraq böyüyən gənclər isə xalqımızın milli sərvəti, ölkəmizin gələcəyidir. Məhz bu baxımdan milli-mənəvi dəyərlərimizə zidd olan narkomaniyaya qarşı mübarizədə hər kəs səfərbər olmalı, zərərli və yad meyillərin qarşısının alınması istiqamətində əlindən gələni əsirgəməməlidir.

Tədbir interaktiv formada davam edib. İştirakçıları maraqlandıran suallar cavablandırılıb, zərərli vərdişlərin mənfi təsiri barədə geniş məlumat verilib.

Tədbir zamanı iştirakçılara Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər, bukletlər ("Narkotiklər haqqında həqiqəti bilin" adlı yaddaş kitabçaları v.s) paylanılıb.

# Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın



*Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömürgün yoldaşı, ölkəmizə iki layiqli övlad, eyni zamanda müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana Zərifə xanım Əliyevanın bu il 100 yaşı tamam olur. Bu 100 yaşın fövqündə Zərifə xanım Əliyeva nur saçır. Onun həyat yoluna nəzər saldıqca gözlər qarşısında Azərbaycanın hər zaman qürurla andığı bir qadın canlanır. Tarix məhz belə insanların sayəsində yaranır, onların nəcibləşən ömürləri gələcək nəsillərə örnək, nümunə olur.*








### Bahar ömürlü insan

Bir bahar günündə dünyaya göz açan, həyatının bütün illərini bahar ömrü yaşadığı üçün elə baharda da dünyadan köçən Zərifə xanım Əliyeva görkəmli həkim, sədaqətli və mehriban həyat yoldaşı, qayğıkeş ana, əsl insan kimi hər an gözəl duyğularla anılır.

Zərifə xanım Əliyeva qədim Naxçıvan diyarında, Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdı. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdı. Zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi.

Tələbəlik həyatının ilk günlərindən fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı və sadəliyi, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdi.

Fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və O, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

### Gözlərə nur həkim

Zərifə xanım Əliyeva ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Onun başlıca məqsədi nəyin bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Ardı Səh. 5



# Zərifə xanım Əliyeva: Azərbaycanın qürurla andığı qadın

Əvvəli-Səh-4

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.

Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir.

Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım daim həkim-xəstə münasibətinə xüsusi diqqət yetirmişdir. O, dəfələrlə demişdir ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır. Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində yazırdı: "Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"



### Tibb elminə saysız töhfə

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir.

Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı.

Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndərimiz deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

### Sədaqətli həyat yoldaşı, qayğıkeş ana

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan Ulu Öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dəruni hisslər oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

Ömrünün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür.

***Mətanət Məmmədova***

# Dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri

*Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Bursa şəhərinə səfəri başa çatıb*


















***Qardaş Türkiyədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Ədalət və İnkişaf Partiyasının Bursa şəhər təşkilatında görüş keçirilib.***

Görüşdən sonra təşkil edilən mətbuat konfransında müzakirə olunan məsələlər barədə KİV nümayəndələrinə məlumat verilib.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Bursa şəhər təşkilatının sədri Davut Gürkan ölkələrimiz arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin əhəmiyyətindən danışıb. O, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin səfərinin həmrəyliyin nümunəsi olduğunu söyləyib. Davut Gürkan Azərbaycanın və Türkiyənin istənilən şəraitdə və vəziyyətdə bir-birinin yanında olduqlarını qeyd edib. Bildirilib ki, "Bir millət, iki dövlət" amalına əsaslanan Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı illər keçdikcə daha da dərinləşib, güclənib. Davut Gürkan hər iki ölkənin iqtidar partiyaları arasında çox güclü əlaqələrin qurulduğunu da xatırladıb.

Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini Efkan Ala bildirib ki, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan ölkələr yoxdur. Dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri müharibədən sonrakı dövrdə də yüksələn xətt üzrə inkişaf edir. Qardaş ölkələrimizin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri, ilk növbədə, hər iki ölkənin liderləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iradəsi, səyləri sayəsində uğurla inkişaf edir. İki qardaş ölkənin hakim partiyaları YAP və AK Parti də bu prosesdə çox mühüm rol oynayırlar. Son iki il ərzində partiyalar arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Söhbət zamanı YAP ilə AK Parti arasında münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. 2021-ci ildə iki partiya arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək mühüm addımların atıldığı, qarşılıqlı səfərlərin əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyi diqqətə çatdırılıb.

Sonra YAP nümayəndə heyəti Bursa Sənaye-Ticarət Palatasında olub. Görüşdə Türkiyə ilə Azərbaycan arasındakı strateji müttəfiqliyə əsaslanan çoxşaxəli münasibətlərin nümunəvi xarakter daşıdığı qeyd edilib. Bildirilib ki, bütün sahələrdə olduğu kimi, iqtisadi müstəvidə də ölkələrimiz arasında səmərəli əməkdaşlıq mövcuddur və iş adamları bu prosesdə fəal rol oynayırlar.

Səfər çərçivəsində nümayəndə heyəti Bursada tarixi məkanları ziyarət edib.

Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin Bursada Qafqaz-Axıska dərnəkləri və azərbaycanlı tələbələrin iştirakı ilə təşkil edilən iftar mərasimində iştirak edib. İftardan əvvəl müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

Çıxışlarda Azərbaycan ilə Türkiyənin bir millət, iki dövləti kimi tarixi köklərə bağlı olduğu, ortaq dini və milli dəyərlərin yaşadıldığı vurğulanaraq, dostluq, qardaşlıq mesajları verilib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bugünkü reallıqlar Türkiyə Respublikasının qurucusu, Böyük Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" kəlamlarının real həyatda təsdiqini tapdığını əks etdirir.

Tahir Budaqov bildirib ki, Azərbaycan-Türkiyə əlaqələri son dövrlər daha da inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə qalxıb. Xalqımız Türkiyənin İkinci Qarabağ müharibəsində verdiyi qardaşlıq dəstəyini heç zaman unutmur. Eyni zamanda, Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında yaxından iştirak edirlər. Azərbaycan da çətin anlarda daim Türkiyənin yanındadır. Fevral ayında baş verən zəlzələlər zamanı Azərbaycan xalq və dövlət olaraq qardaş Türkiyəyə öz yardımını göstərdi və bu dəstək bu gün də davam edir. Nümayiş etdirilən qarşılıqlı həmrəylik, dəstək, birlik və vahid mövqe, həyata keçirilən layihələr onu deməyə əsas verir ki, xalqlarımızın böyük qürur duyduqları Azərbaycan-Türkiyə birliyi və qardaşlığı gələcək nəsillər tərəfindən də davam etdiriləcək.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev daxildir.

# Girov hərbçimizə qarşı amansız qəddarlıq: beynəlxalq aləm yenə susur (?!)





Məlum olduğu kimi, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azaraq itkin düşən və düşmən tərəfindən girov götürülən azərbaycanlı hərbi qulluqçu Ermənistanda ağır işgəncələrə məruz qalıb.

Lakin işgəncə faktı məhz erməni sosial şəbəkələrində ictimailəşdiriləndən sonra bu cinayətə görə beynəlxalq aləmin susqunluğu müşahidə edildi. Daha dəqiq desək, uzağı bir-iki təşkilat boğazdan yuxarı "bəyanat" verməklə işlərini bitmiş hesab etdilər. Yalnız Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko bəyan etdi ki, Azərbaycanlı əsgərə qarşı zorakı münasibətin əks olunduğu videonu görüb və bu mənzərə doğrudan da acınacaqlıdır. "Bütün əsirlərə beynəlxalq humanitar hüquqa uyğun davranılması vacibdir", deyə bildirilib. Təəssüf ki, biz bu dəfə də Azərbaycana qarşı etinasızlığın şahidlərinə çevrildik. Bəli, ola bilsin ki, bugünlərdə Beynəlxalq Qırmızı Xaç Təşkilatı və s beynəlxalq humanitar xarakterli qurumlar hər hansı münasibət bildirsinlər, amma bu münasibətlərin əməli şəkildə həyata keçirilmələrinə inanmaq çətindir. Mövzunun bu hissəsinə yenidən qayıdacağıq...

### Ermənistana boğazdan yuxarı deyil, məhz sərt reaksiya verilməlidir!

Lakin daha bir fakt budur ki, qəddarlıq, zalımlıq erməni xislətinə xas olan bir elementə çevrilib. Məhz bu səbəbdən də onların bizim hərbi qulluqçu ilə normal rəftar edəcəyi gözlənilən deyildi. O da təsadüfi deyil ki, erməni cəmiyyətinin bu kəsiminin bütün qanunlara, qaydalara, başlıcası isə insanlığa yad olan davranışlarından azərbaycanlılar ümumiyyətlə, müxtəlif tarixlərdə çox əziyyət çəkiblər. Bu baxımdan, insanlığın, humanizmin, şərəfin nə olduğunu bilməyən ermənilərin davranışlarına dünya səssiz qalmalı deyil. Artıq Azərbaycan cəmiyyəti, xalqı da dünyadan tələb edir ki, Azərbaycan hərbi qulluqçusu ilə qəddar davranışa görə Ermənistana boğazdan yuxarı deyil, məhz sərt reaksiya (!) verilsin. Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin isə hadisə günündə susması əsla yolverilməzdir!

### Azərbaycan Ordusunun hərbi qulluqçusunun vəhşi işgəncələrə uğradığı videogörüntülər bir daha sübut edir ki, düşmən nə qədər qəddar, qansız və acımasızdır

Əgər erməniləri azərbaycanlılarla eyni tərəzi gözünə qoysaq, bu tərəzidə azərbaycanlıların ağır gələcəyi də faktlara əsaslanır. Məsələn, ermənilər Azərbaycan hərbi qulluqçusuna şiddət göstərir, amma azərbaycanlılar əsir düşən ermənilərə qayğı ilə yanaşır, yaralarını sarıyır, müalicə edir, yeməklə, geyimlə təmin edir. Bu baxımdan da, baş verənlər erməni faşizminin iç üzünü bir daha ifşa edir. Beləliklə, azaraq Ermənistan ərazilərinə keçmiş Azərbaycan Ordusunun hərbi qulluqçusunun vəhşi işgəncələrə uğradığı videogörüntülər bir daha sübut edir ki, düşmən nə qədər qəddar, qansız və acımasızdır.

### Bir daha əmin oluruq ki, vəhşilik, qəddarlıq, terrorçuluq xüsusiyyətləri sözügedən tayfasının geninə hopub

Bir etirafı da etmək yerinə düşərdi: biz həmişə çalışmışıq ki, ermənilərin terror xislət barədə danışarkən, onu yalnız Ermənistanı idarə edən hakimiyyətlərə, həmçinin erməni ordusuna aid edək. Yəni müəyyən məsələləri, prinsipləri nəzərə alaraq həmin xislətin bütöv bir xalqa, millətə aid edilməməsinə (!) cəhdlər göstərmişik. Ancaq hazırda bizlər həmin videogörüntülərin şahidlərinə çevrildiyimiz zaman bir daha əmin oluruq ki, vəhşilik, qəddarlıq, terrorçuluq xüsusiyyətləri sözügedən tayfasının genində hopub. İstər hərbçisi olsun, istərsə də mülkisi – onların dillərində bir söz var – "murdar türk"!

### Hətta bir erməni azərbaycanlı hərbi həkimin onun həyatını xilas etdiyini və o da ömür boyu ona minnətdar olacağını da bildirmişdi

Daha bir faktı da xatırlada bilərik. Xatırlayırsınızsa, bir müddət əvvəl, daha dəqiq desək, ötən il erməni tərəfi guya azərbaycanlı hərbçilərin erməni hərbçilərini "gülləbarana" tutmalarını əks etdirən saxta videogörüntülər yaymışdılar. Bir çox aparıcı araşdırma mərkəzlərinin sonradan gəldikləri rəylər həmin videonun yalan olduğunu və quraşdırılma səhnə olduğunu təsdiqlədi. Təəssüf ki, mənfur qonşularımızın bu əməlləri də gözləniləndir. Halbuki, istər müharibə vaxtlarında, istərsə də sonrakı dövrlərdə əsir düşmüş erməni hərbçiləri qəbul edilmiş konvensiyalara uyğun olaraq və rəsmi hərbi əsir statusu alaraq onlara lazım olan bütün yardımlar göstərilib. Sonradan isə onlar öz ölkələrinə geri göndəriliblər. Bir çox erməni hərbi əsirləri hətta öz ölkələrində Azərbaycanda əsirlikdə olarkən tələb olunan konvensiyalara uyğun şəkildə davranış göstərildiyini bildirdilər. Hətta bir erməni azərbaycanlı hərbi həkimin onun həyatını xilas etdiyini və o da ömür boyu ona minnətdar olacağını da bildirmişdi. Ancaq azərbaycanlı hərbi əsirlərə necə davranışların göstərildiyini sübuta yetirən yüzlərlə görüntülər var. Hazırda baş verən bu olay da həmin faktların birinə çevrilməkdədir.

Yuxarıda da qeyd etdiyimiz kimi, yaxşı olardı ki, məlum xarici təşkilatlar buna öz münasibətlərini bildirsinlər. Bir erməninin həmsərhəd ərazilərdə burnu qanayan kimi Azərbaycana qarşı olmazın hücumlar təşkil edən bəlli beynəlxalq təşkilatlar, insan haqları qurumları bu olayı dərhal diqqətə götürsünlər və bəyanatlar versinlər. Əks halda belə təşkilatların da yersiz və lazımsız olduqları növbəti dəfə sübuta yetiriləcək.

Ümumiyyətlə, haqqında bəhs etdiyimiz mövzu hər bir vətəndaşımız üçün çox ağrılı və acı doğuran bir hadisədir və hesab etmmək olar ki, belə davam edə bilməz. Ermənistanın faşizm, gestapoçuluq, qəddarlıq ruhunda mövcud olan təhlükəli cəmiyyəti törədilən həmin cinayətlərinə görə artıqlaması ilə hüquqi, lazım gələrsə digər xarakterli cavablarını almalıdırlar.

Xatırladaq ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Azərbaycan Ordusunun itkin düşən iki əsgəri ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib. Bildirilib ki, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və digər aidiyyəti dövlət qurumları tərəfindən Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu ilə bağlı zəruri axtarış və araşdırma işləri davam etdirilir.

***Rövşən RƏSULOV***



## "Seçkilərin nəticəsi türk xalqının iradəsindən asılıdır"

**"Azərbaycan və Türkiyə münasibətləri bir millət, iki dövlət müstəvisində formalaşmışdır. Bu mənada Türkiyədə baş verən istənilən hadisə Azərbaycan vətəndaşlarının böyük əksəriyyətinin diqqət mərkəzində olur. Xüsusilə də siyasi baxımdan belə bir həlledici hadisə Azərbayacanın diqqət mərkəzindədir. Təbii ki, Türkiyənin uğurlarına sevinir, pis anlarına isə kədərlənirik. Mayın 14-ü keçiriləcək seçkilərin də Türkiyə üçün xeyirli olmasını istəyirik". Bu sözləri SİA-ya açıqlamasında "Cəmiyyətin İnkişafı" Mərkəzinin sədri Əhməd Abbasbəyli deyib. Onun sözlərinə görə, Türkiyədəki Prezident seçkiləri yalnız Azərbaycan deyil, bütün dünya, xüsusilə də region üçün çox əhəmiyyətli prosesdir: "Bu mənada seçkilər dünya üçün həssas bir məqamdır və hər kəsi narahat edir.**

Təbii ki, bu seçkilərin nəticəsi türk xalqının iradəsindən asılıdır. Bir Azərbaycan vətəndaşı kimi ayrı-ayrı siyasi fiqurları da dəyərləndirirəm. Əgər obyektiv yanaşsaq, ölkə daxilində gedən prosesləri bir seçici kimi dəyərləndirə bilmərik. Mən prosesləri hazırki Türkiyə Prezidentinin beynəlxalq nüfuzu və ümumiyyətlə, ölkənin son illər beynəlxalq aləmdə önəmli bir faktora çevrilməsini nəzərə alaraq dəyərləndirmək tərəfdarıyam".

Sədr sözlərinə davam edərək bildirib ki, əlbəttə ki, həm region dövləti, həm də NATO üzvü olaraq hər kəs Türkiyə ilə hesablaşmağa məhkumdur: "Türkiyənin son illərdə nümayiş etdirdiyi prinsipial mövqe heç bir dönəmdə olmayıb. Hesab edirəm ki, Türkiyəni sevməyən dövlətlər onun bu mövqeyindən narahatdır. Mən çox ciddi şübhə edirəm ki, seçkilərdə Rəcəb Tayyib Ərdoğan prezident seçilməsə, yeni seçiləcək rəhbər ən azı yaxın dövr ərzində həmin o mövqeyi ortaya qoya bilməyəcək. Bu da Türkiyə üçün əhəmiyyətli bir dövrdə vaxt itkisinə səbəb ola bilər".

***Ləman Əlizadə***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## ATƏT nə etmək və nə demək istəyir?

***Sirr deyil ki, ATƏT nümayəndələri daha əvvəllər də elə indi də Qarabağ separatçıları ilə bu və ya digər şəkillərdə görüşlər keçirməkdədirlər. Ancaq bütün bunların fonunda istər-istəməz belə bir sual yaranır: əcəba, belə olan halda, yəni bundan sonra sülh danışıqları haqqında nə qədər zaman danışılacaq, yaxud müzakirələr aparılacaq? Çünki bu faktın özü artıq nəyin-nə olduğunu növbəti dəfə ortaya çıxarmış olur.***

Söz yox ki, ATƏT rəsmilərinin Qarabağ searatçıları ilə görüş mümkünlükləri Bakı ilə reqlamentləşdirilir və onu da qeyd edək ki, belə görüşlər Qarabağın azərbaycanlı icması ilə də baş tutub. Lakin ikinci Qarabağ müharibəsindən sonra Qarabağ azərbaycanlıları cəmiyyəti öz fəaliyyətini dayandırıb. Belə ki, torpaqlarımız işğaldan azad edildikdən sonra buna ciddi bir ehtiyac da qalmayıb. Amma...!

Amma daha bir məsələ budur ki, əgər ATƏT-in rəhbərliyi Azərbaycanda yaşayan ermənilərlə görüşlər keçirirsə, onda nəyə görə Ermənistandakı yurd-yuvalarından didərgin düşmüş azərbaycanlı icması ilə belə görüşlərə start verilmir? Bəlkə Ermənistan rəhbərliyi qarşısında bu məsələ də qaldırılsın və tələb edilsin ki, ATƏT Ermənistanın azərbaycanlı icması ilə görüşlər keçirməli və öz yurd-yuvalarına geri dönmələri prosesinin başlanılması istiqamətində fəaliyyətə start verməlidir!

Əgər bu mövzu gündəmə gətirilmirsə, deməli, ATƏT sözügedən məsələyə erməni tərəfinin üstünlüyü ilə baxır və bu, yolverilməzdir. O cümlədən, artıq belə qənaətə gəlmək lazımdır ki, Qarabağda qalan separatçı tör-töküntülərin rədd edilmələri istiqamətində başladılan işlər sürətlənməli, ərazilərimiz qeyri-qanuni silahlı erməni birləşmələrindən təmizlənməlidir.

Sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin reallaşmaması, habelə şərti sərhədlərin mövcudluğu isə onların dəqiqləşdirilməsi yönündə aparılacaq işlərlə davam etdirilməlidir – tarixi torpaqlarımız işğaldan azad edilməli, Qərbi Azərbaycandan olan soydaşlarımız isə öz doğma yurd-yuvalarına geri dönməlidirlər!

Bu kimi qənaətlərə gəldikdə ortaya bu yekun nəticə çıxır: istər ATƏT-in, istərsə də digər hansısa təşkilatların Qarabağdakı separatçıların və İrəvandakı hakimiyyətin nazları ilə oynama prosesi əvvəl-axır Bakının sərt və ildırım sürətli cavabı ilə nəticələnəcək.

Görünən budur ki, cərəyan edən son proseslər ATƏT-in bu mövzuda özünü diskreditə edib, yəni etimadını qismən (və ya tamamilə) itirməyə başlayıb. Hətta belə desək, iflic vəziyyətinə düşüb və sonda anaxronizm strukturuna çevrilib. Çünki belə görüşlər birbaşa separatçıların və Ermənistan rəhbərliyinin xəstə təxəyyülləərinə, eləcə də təfəkkürərinə hansısa ümid qığılcımları verir. Nəticədə isə, Azərbaycan yenidən bu "ümidlərin" məhv olması üçün sərt hərəkətlərə keçmək məcburiyyətində qalır, bu hərəkətlər fonunda torpaqlarımızın qalan hissələri də azad edilir, buna rəğmən isə tərəflər itkilər verir və s

Fəqət, baş verən və verə biləcək silahlı insidentlərdən ATƏT-in də məsuliyyət payına nələr isə düşür. Ona görə də bu Avropa təşkilatının ikibaşlı oyunbazlıqlardan əl çəkib nəticə göstərməyinin vaxtı çatıb, yox, bunu etmək istəməsə belə, bu amil Azərbaycan üçün danılmaz reallıqdır, tələbdir!

# Heydər Əliyev-100



# Ümummilli Liderin gənclər siyasəti öz layiqli bəhrəsini verir

Təhlil

***Məlum olduğu kimi, Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi əvəzsiz liderin dövlətimizə və millətimizə xidmətləri Prezidentimiz cənab İlham Əliyev tərəfindən olduqca yüksək qiymətləndirilərək, 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub. Dahi şəxsiyyətin 100 illiyini qeyd etdiyimiz bu günlərdə çoxsaylı silsilə tədbirlərdə Ulu Öndər dühasının xalqımıza bəxş etdiyi mühüm töhfələrdən bəhs olunur, Onun misilsiz xidmətləri barədə media orqanlarında müxtəlif fikirlər səsləndirilir və məqalələr yazılır.***




**Bayram Aslanov,
YAP İdarə Heyətinin üzvü**

Ümummilli Liderin banisi olduğu müstəqil dövlətimizin inkişaf dövrünün yetirməsi olan bir gənc kimi mən də Ulu Öndərin 100 illiyi ərəfəsində rəhbərimizin uğurlu gənclər siyasətindən bəhs etmək istərdim. Çünki Ulu Öndər yaşadığı 80 illik ömrünün çox hissəsini xalqımıza xidmətə həsr edib. Xalqımızın rifahı və gələcəyi isə sağlam, savadlı, vətənpərvər gənc nəslin hazırlanmasından birbaşa asılı olub. Bunu əsas götürən Ulu Öndər hələ birinci dəfə Azərbaycanda rəhbər vəzifəyə seçiləndən dərhal sonra gənclərimizin mükəmməl təhsil alması, müxtəlif peşələrə, o cümlədən hərbçi peşəsinə yiyələnməsi qayğısına qalıb. İttifaqın nüfuzlu ali məktəblərində təhsil almaq üçün gənclərimizin respublikadan kənara göndərilməsi, eyni zamanda Bakıda milli hərbi kadrların hazırlanmasında baza rolu oynayan Cəmşid Naxçıvanski adına hərbi məktəbin fəaliyyətə başlamasını bunlara misal göstərmək olar.

Təsadüfi deyil ki, təxminən 55 il əvvəl Azərbaycanda əsası qoyulan gənclər siyasəti ötən əsrin 80-ci illərində və müstəqillik əldə etdikdən sonra da xalqımızın inkişafına öz təsirini göstərib. Belə ki, 1969-cu ildən sonrakı dövrə gəncliyi təsadüf edən bütöv bir nəsil Ulu Öndərin sayəsində respublika daxilində olduğu kimi, xaricində də təhsilə yiyələnərək, ölkəmizdə gedən quruculuq prosesində iştirak edərək, Azərbaycanı gələcəyə uğurla çıxarıb. Zamanı gələndə həmin öncül kəsim estafeti daha gənc nəsillərə ötürüb. Onlar da öz növbəsində respublikanın müstəqilliyi uğrunda milli azadlıq mübarizəsi də daxil olmaqla, Vətənə və dövlətə ləyaqətlə xidmət etmişlər.

Baxın, məhz Ulu Öndər Heydər Əliyevin memarlıq və quruculuq təcrübəsi ilə yetişdirilən həmin nəsil bizi müstəqilliyə qovuşdurdu, xalqımızın ən çətin dövrlərdə belə ayaqda qalmasını təmin etdi.Çox təəssüf ki, 1990-cı illərin əvvəllərində, yəni Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrdə ölkəmiz işğalçılıq niyyəti güdən Ermənistan tərəfindən təcavüzlə qarşı-qarşıya qaldığı üçün gənclərimiz ciddi sınaqlarla və çətinliklərlə üzləşdi. Belə ki, Vətənin müdafiəsinə qalxan, torpaqlarımızın qorunması üçün əllərindən gələni əsirgəməyən gənclərimizin bir çoxu 1991–1994-cü illərdəki Birinci Qarabağ müharibəsində şəhid oldular, yaralandılar və uzun illər hərbi xidmət keçmək məcburiyyətində qaldılar. Onu da qeyd edim ki, 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin sayəsində cəbhədə əldə edilən uğurlar düşmən tərəfini atəşkəs sazişi imzalamağa məcbur etdi. Eyni zamanda, 1994-cü ilin mayında cəbhədə atəşkəs elan edilməsi həmin vaxt nə qədər davam edəcəyi bəlli olmayan silahlı münaqişədə minlərlə qəhrəman övladlarımızın şəhid olmasının qarşısını aldı. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ildə müharibənin dayandırılmasında əsas məqsədlər ölkənin iqtisadi inkişafına nail olmaq, ordu quruculuğunda mühüm addımlar atmaq idi.

Bu məqamda qeyd etmək yerinə düşər ki, atəşkəs elan edilməsindən dərhal sonra Ulu Öndər gələcəyimiz olan gənclərin qayğısına qalmaq üçün mühüm addımlar atdı. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 26 iyul 1994-cü il tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, gənclərin öz aralarında, habelə dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyətini asanlaşdırmaq məqsədilə Ümummilli Lider tərəfindən 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Məhz Ulu Öndərin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə Azərbaycan Gənclərinin I Forumu keçirildi. Azərbaycan Gənclərinin I Forumunun ildönümü münasibətilə 1 fevral 1997-ci ildə gənclərin bir qrupunu qəbul edəndən sonra Ümummilli Lider Heydər Əliyev 2 fevral tarixinin Azərbaycanda Gənclər Günü elan edilməsi haqqında Sərəncam imzaladı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycan Gənclər Günü kimi qeyd olunur.

Ulu Öndərin gənclər siyasətinin daha bir mühüm istiqaməti o vaxt gənclərimizə nümunə olan cənab İlham Əliyevin ali rəhbər vəzifə üçün püxtələşməsinin qeydinə qalmaq idi. Məqsədəmüvafiq olaraq yetişdirilən Gənc Liderin 2003-cü ildə xalqımız tərəfindən prezident seçilməsi həmin siyasətin uğurundan xəbər verirdi. Sonrakı illərdə sübut olundu ki, İlham Əliyev şəxsiyyəti Heydər Əliyev fenomeninin ən layiqli davamçısı, gənclərə olan münasibəti Ulu Öndərin mirasıdır. Sözsüz ki, Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin gənclərə münasibəti də birmənalı şəkildə müsbət olub. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti ötən illər ərzində dövlə başçısı tərəfindən uğurla davam etdirilib. Belə ki, Ulu Öndərin 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilir. Onu da xatırladaq ki, 18 sentyabr 2001-ci il tarixli Fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. Həmçinin 2002-ci il 9 aprel tarixində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Bu Qanunla respublikamızda gənclər siyasətinin məqsədləri, prinsipləri və mühüm istiqamətləri müəyyənləşdirilib. Dövlət başçısının 30 yanvar 2006-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyinin əsasında yenidən Gənclər və İdman Nazirliyi təsis edilib. Xüsusi vurğulamaq yerinə düşər ki, son illərdə Azərbaycanda gənclərin layiqli təhsil alması əsas prioritet istiqamət olmaqla yanaşı, ölkəmizdə idmanın inkişafına da böyük diqqət və qayğı göstərilir. Ümumiyyətlə, ölkədə uzun illərdir yürüdülən gənclər siyasəti müstəqil Azərbaycanın gələcəyinə töhfə verən, biliyinə güvənən, lazım gələndə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçməyə hazır olan vətənpərvər gənclər yetişdirməyə yönəldilib.

Təsadüfi deyil ki, Vətən müharibəsində əldə edilən Zəfərdə Azərbaycan gənclərinin misilsiz xidmətləri olub. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev də öz çıxışlarında Azərbaycan gənclərinin, mərd oğullarının qəhrəmanlığını dəfələrlə bəyan edib. Ona görə ki, hələ Vətən müharibəsi başlamamış, 2020-ci ilin iyulunda Ermənistanla dövlət sərhədində baş verən toqquşmalar zamanı gənclərimiz ayağa qalxaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçməyə hazır olduqlarını nümayiş etdirmişdilər. Eyni zamanda İkinci Qarabağ müharibəsində Şuşanı böyük şücaətlə azad edən ordumuzun əsgər və zabitlərinin mütləq əksəriyyəti gənclər idi. Bir zamanlar körpə kimi qucaqda öz doğma yurdlarını tərk etməyə məcbur qalanlar 30 il sonra tank üstündə qəhrəman kimi ata-baba torpaqlarına daxil oldular. Azərbaycan xalqının gənc və igid övladları Ali Baş Komandanın rəhbərliyi altında müharibənin özlərindən sonrakı nəsillərə xoşagəlməz miras kimi qalmasına imkan vermədilər. Yeri gəlmişkən, qeyd edim ki, Ümummilli Liderimiz qurucusu olduğu Yeni Azərbaycan Partiyasında da son illərdə gənc nəslin yetişməsində rolu danılmazdır. Vaxtilə partiyanın yetişdirdiyi gənclər bu gün deputat, nazir, komitə, təşkilat və birlik sədri, icra hakimiyyəti başçısı, bələdiyyə sədri və müxtəlif vəzifələrdə, elm sahəsində çalışır və digər yüksək peşə ixtisasına yiyələnirlər. Üstəlik, onların dövlətimizə və xalqımıza göstərdikləri xidmətlər əvvəlki nəsillərdən heç də geri qalmır. Ümumiyyətlə, müstəqilliyin bərpasından sonra olduğu kimi, son illərdə gənclərin məqsədyönlü şəkildə yetişdirilməsi bizim bir çox sahədə uğurlarımızı şərtləndirib. Zaman göstərdi ki, Ümummilli Liderin əsasını qoyduğu gənclər siyasəti öz layiqli bəhrəsini verir. Heç bir şübhə yoxdur ki, Ulu Öndərin gənclər siyasəti ilə yetişdirilən milli və vətənpərvər Azərbaycan gəncliyi öz uğurlu nəticələrini layiqli şəkildə gələcək nəslə ötürəcək.

BAXIŞ BUCAĞI

# Qərbin xain Türkiyə planı





***Türkiyə seçkilərə hazırlaşır. Bir yer uğrunda mübarizə aparan namizədlərin sayı 4 olsa da, onların arxasında yüz milyonlar var. Soruşa bilərsiniz ki, Türkiyədə təxminən 85 milyon insan yaşadığı halda yüz milyonlar haradan çıxdı. Yox, səhv eşitmədiniz, məhz 100 milyonlar, çünki seçkilərin nəticələrində marağı olanlar təkcə Türkiyə vətəndaşları deyil, qardaşının gələcəyini düşünən, inkişaf etməsini istəyən Azərbaycan da var. Amma bu uğurdan, inkişafdan narahat qüvvələr də var ki, gecə-gündüz yatmayıb bu tərəqqini əngəlləməyə çalışırlar. 14 may seçkiləri də onların əlinə, sanki göydəndüşmə olub.***

Bu gün Türkiyə irili-xırdalı 4 cəbhəyə bölünüb. Tərəflər bir-birini ittiham edir, dövləti daha yaxşı idarə edə biləcəyi iddiasını açıq şəkildə ortaya qoyurlar. Amma ədalətin tərəzisini bəzən unudurlar. Dəyişiklik, inkişaf yaxşıdır, amma dəyişiklik ölkənin daha yaxşı və sürətli inkişafını təmin etməyə yetəcəksə, onda buna ikiəlli razılıq verməli və gələcək prezidenti dəstəkləmək lazımdır. Amma görünən odur ki, Ərdoğan xaric, heç bir namizədin idarəçilikdə heç bir uğuru yoxdur, ya da seçki platformasında seçiciləri inandıracaq bir maddəyə rast gəlinmir. Sadəcə, vaxtilə Azərbaycanda olduğu kimi, bəziləri indiki vəziyyəti davam etdirəcəklərini düşünürlər. Amma unudurlar ki, ölkənin indiki inkişafı, dünyada söz sahibi olması üçün Ərdoğanın rəhbərlik etdiyi komanda bütün həyatlarını riskə qoyublar, heç kimin təsəvvür edə bilməyəcəyi uğurlara imza atıblar, xəyalları gerçəkliyə çeviriblər. İndi hakimiyyətə iddialılar isə bu inkişafa mane olmaqdan başqa heç bir "uğur" əldə edə bilməyiblər.

Qardaş Türkiyəni regionun söz sahibi dövlətinə çevirən Rəcəb Tayyib Ərdoğandır, bunu inkar etmək insafsızlıq olar. Qərbin Türkiyəni idarə etməsini qəbul etməyən AK Partiya rəhbərliyi müstəqilliyin bütün atributları ilə yanaşı, texnoloji yeniliklərə söykənən sənayenin inkişafını təmin edə bildi. Amerikanın asılılığından qurtuldu. Hərbi sənayenin inkişafı da maraqlı səbəblərdən baş verdi. Belə ki, ABŞ-ın diqtəsi ilə Qərb ölkələrinin Türkiyəyə müdafiə silahlarını verməkdən imtina etməsi Ankaranı başqa yollar axtarmağa vadar etdi. Əslində Türkiyə əvvəllər olduğu kimi silah tədarükü üçün başqa ölkələrə də müraciət edə bilərdi. Amma Ərdoğan hökuməti başqa yol seçdi. Hərbi sənaye kompleksini yenilədi, ordunun arsenalını öz istehsalı, milli silah sənayesinin məhsulları ilə təmin etdi. Əsl mərəkə də bundan sonra başladı. ABŞ Türkiyəni bəzi bəhanələrlə F35 qırıcı təyyarələrinin istehsalını maliyyələşdirən ölkələr siyahısından çıxardı və bundan bir az əvvəl isə NATO-nun hava hücumundan müdafiə sistemlərini – "Petriot" tipli raketlərini Türkiyə ərazisindən çıxartdı. Bütün bunlar Türkiyəyə bir xəbərdarlıq oldu. Qardaş ölkəyə qarşı sanksiyaların artması, əslində Türkiyənin silah sənayesinin inkişafına, müdafiə qabiliyyətinin artmasına səbəb oldu. Bəzən bu sınaqlardan qazanclı çıxanlar da olur və belə ölkələrdən biri də Türkiyədir.

Qərb Türkiyəni başqa istiqamətdən vurmağa can atır. Eyni ilə FETÖ kimi, ölkənin idarəçiliyinə nüfuz etmək planlarını gerçəkləşdirmək istəyir. Cümhuriyyət Xalq Partiyasının sədri, "6-lı Masa"nın namizədi Kılıcdaroğlunu dəstəkləməklə inkişafı əngəlləməyə çalışır. Əslində Kılıcdaroğlu Amerikanın təqdim etdiyi kimi uğurlu milli kadr deyil, sadəcə, Qərb CHP sədrini idarə etməkdə çətinlik çəkməyəcək. Bunun Türkiyənin milli maraqlarına nə qədər təsir edəcək, bunu müəyyənləşdirmək o qədər də çətin deyil.




Türkiyədə seçkiöncəsi siyasi mübarizə getdikcə gərginləşir. Qrşılıqlı ittihamların da ardı-arası kəsilmir. Təbii ki, hüququ dövlətin vətəndaşları olaraq türklər bütün məsələlərə sandıq başında aydınlıq gətirəcəklər. Bu gün rəqibləri, xüsən də CHP sədrinin namizədliyini dəstəkləyən "6-lı Masa" Prezident Ərdoğana qarşı təhqir, söyüş və nifrət ifadələrini artırıblar, bu ağır hərəkətlər adi hala çevrilib. Amma bu, sadəcə nifrət deyil, siyasi rəqabəti normal qaydaları çərçivəsində saxlaya bilməyən mentalitetin irsi xəstəliyidir. Düyün-düyün toxumaqla nifrətə çevrilmiş dəlilik siyasətidir.

Keçən həftə küçə müsahibəsində qadının qan donduran nifrət çıxışı gündəmə gəlmişdi. Təəssüf ki, yazarkən belə insanları utandıracaq o ifadələri təkrarlamaq məcburiyyətindəyik. İnsanlıqdan əziyyət çəkməyən şəxs "Allah AK Partiya iqtidarını məhv etsin" deyib. Adam danışmağa söz tapa bilmir. Cümhurbaşqanı bu ölkəyə pis nə edib ki, bu qədər kin-küdurət saçırlar. Müxbir qadından fikirlərini əsaslandırmağı xahiş edir, amma o bir səbəb gətirə bilmir, sadəcə bunu belə istədiyini deməklə kifayətlənir. Prezident Ərdoğan və həmkarlarının ailələrinə qarşı sistemli təhqirlər edilir. Keçmiş xəzinə və maliyyə naziri Berat Albayrakın dördüncü övladının dünyaya gəldiyini paylaşdığı sosial media hesabı altında yazılan təhqirlər, daxili işlər naziri Süleyman Soylunun rəhmətlik anası ilə bağlı paylaşımı altında yazılan təhqirlər ağır hadisələrdir. Nifrət doğuran hadisələrin sayı və miqyası bu məqalənin hüdudlarını aşır.

İnsanlığa qarşı cinayət olan bu nifrət və faşizmin ən təhlükəli tərəfi onun adi hala çevrilməsidir.

Əslində biz elə bir vəziyyətdə yaşayırıq ki, "nifrət bayağılığı" adi hala çevrilib. Bütün siyasi partiyaların bu nifrətə qarşı birmənalı mövqe tutmaması nifrət və pisliyi adi hala gətirir. Cümhuriyyət mitinqlərinə, muxtariyyət çağırışı ilə başlayan 17-25 dekabr sui-qəsdinə, 15 iyul xəyanətkar dövlət çevrilişinə və baş verənlərə qarşı bütün tərəflərin bir yerdə reaksiya verməməsi, hakimiyyətə qarşı zorakılıq və nifrət adi hala çevrilib. Prezident Ərdoğana qarşı təhqirlər, söyüşlər və nifrət ifadələri fikir azadlığı kimi paketlənəndə bu ağır hərəkətlər də adi hala çevrilir.

1950-ci il mayın 14-də hakimiyyətini Menderesə təhvil verən zehniyyət uzun illər keçsə, siyasi aktyorlar dəyişsə də, eyni üsullarla nifrət siyasəti istehsal etməyə davam edir. Bu gün Ərdoğanın simasında yaradılan bu nifrət siyasəti keçmişdə Menderes, Özal, Ərbakan, Türkeş, Yazıcıoğlu kimi siyasətçilərə də eyni zehniyyət tərəfindən tətbiq edilib. Yaxın siyasi tariximizdə baş verənləri araşdırdıqda görürük ki, nifrət yaradanlarla öz metodları ilə nifrətə məruz qalanlar eyni mirasın nümayəndələridir.

Demokratların 1950-ci il mayın 14-də keçirilən seçkilərdə qələbəsi İnönüdə keçmişlə barışacaqları qorxusu yaratmışdı. Bu səbəbdən İnönü 1950-ci il mayın 27-də yeni hökuməti belə xəbərdar etmişdi: "Demokratik rejimin firavan dövlət idarəsi şəklində təzahürü müxalifət partiyasından asılıdır. Əgər iqtidara qarşı çıxan müxalifət partiyaları seçim edərsə. Müxalifət partiyası dövləti və milləti gözdən salmaq bahasına olsa belə hər şeyi pis göstərsin. Əgər hakimiyyət hər bir təbii çətinliyi gücləndirməyə çalışırsa, bir sözlə, iqtidar-müxalifət münasibətləri şüursuz qarşıdurma vəziyyətinə düşərsə və çəkişmə, demokratik rejimi məhv edər". Sonrakı illərdə İnönü və dostları bu yanaşmaya rəğmən hərəkət edərək dağıdıcı müxalifət anlayışı güdülər.

Menderes və onun hakimiyyətini devirmək əzmində olan müxalifət Məclisdə çəkişmə və qarışıqlıq yaradır, xalq arasında qorxu və təşviş yayırdı. DP dövrünün millət vəkillərindən olan Səməd Ağaoğlu "Dostum Menderes" kitabında bu vəziyyəti belə izah edir: "Yalnız Demokrat Partiyasını deyil, Türkiyə dövlətini də çökdürmək istəyən kimi işarələr var. Gizli dodaqlar, xalqın hər məhəllədə yaradılan milyonçular tərəfindən soyulur və nazirlər bu milyonçularla ortaqdır. Ölkənin müdafiəsinin təhlükə altında olduğunu, türk ordusunun kapitalist Amerikanın ixtiyarına verildiyini pıçıldayır. Məxfi qələmlər bunlarla dolu bəyannamələr yazır. Dəhşətli yalanlar və gizli mətbəələr onları yüz minlərlə çap edir".

Bu gün fərqlidir? Yox. Dövlətin dağılmasını istəyən terror təşkilatları hər gün açıqlamalar verir və hökuməti devirməyə çalışdıqlarını bildirirlər. Maraqlıdır ki, müxalifət partiyaları onlara heç bir reaksiya vermir. Dünən türk ordusunun Amerikanın komandanlığına keçdiyini yalanlayanlar bu gün türk ordusunun Qətərə satıldığını deyirlər. Dünən gizli əşyaların yalanları olduğu halda, bu gün sosial mediada trolların çıxardığı yalanlar aktivləşir.

Rəhmətlik Menderes bu kin-küdurətin səbəbini belə izah edirdi: "Bizim bütün günahımız hakimiyyətə gəlməkdir. Biz bu günaha görə ölənə qədər bizi bağışlamayan bir kin tutacaq". Amma Türkiyənin doğru seçim edəcəyinə hər kəs inanır, Hakimiyyətdəkilər də, xalq da, imperializmin alətisi olanlar da

**V.VƏLİYEV**

# YAP Zəngilan rayon təşkilatının 29-cu ildönümü münasibətilə tədbir keçirilib



***Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan rayon təşkilatında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi və təşkilatın yaradılmasının 29-cu ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ucaldılmış büstü ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər.***

Tədbirdə Dövlət Himni səsləndirilib, Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov bildirib ki, ulu öndər Heydər Əliyev xalqımızın, cəmiyyətimizin milli inkişafına yönəlmiş müstəqillik konsepsiyasının banisidir. Qeyd edib ki, Azərbaycan cəmiyyətinin milli özünüdərkə dönüşü, xalqımızın tarixi yaddaşının özünə qaytarılması, milli ruhun oyanması mərhələsinin əsası da ötən əsrin 70-ci illərində Ümummilli Lider tərəfindən qoyulmuşdur. Azərbaycan xalqının gerçək tarixinin öyrənilməsi, milli ədəbiyyat nümunələrinin, adət-ənənələrinin təbliğ olunması, Azərbaycan dilinin qorunması və geniş yayılması, kadrların milliləşdirilməsi kimi cəsarətli addımların atılması Ulu Öndərin qətiyyətinin göstəricisi olmuşdur. Bu gün müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsasını təşkil edən azərbaycançılıq ideyasının bünövrəsinin qoyulması, onun mükəmməl bir konsepsiya şəklində irəli sürülməsi və icra olunması da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə vurğulayıb ki, Azərbaycan xalqının taleyində mühüm rol oynamış elə bir hadisə yoxdur ki, orada Heydər Əliyevin imzası, adı olmasın. Saatlarla, günlərlə, aylarla bu böyük şəxsiyyət haqqında danışmaq olar. Çünki onun həyatı bir tarixdir. Azərbaycanın XX əsr tarixi. Keşməkeşli, mübarizə və inkişaf tarixi...

Natiq Quluzadə qeyd edib ki, Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır: "1992-ci il noyabrın 21-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi yeni müstəqil Azərbaycanın tarixində parlaq gələcəyin əsasını qoydu. Xalqın ümid yeri olan Heydər Əliyevin siyasi meydana qayıdışı isə Azərbaycanı bəlalardan xilas etdi, onun gələcək uğurlarına yol açdı. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı alındı. Heydər Əliyev öz qayıdışı ilə Azərbaycana sülh, sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Artıq cəmiyyətin hər bir üzvündə dövlətimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı."

Milli Məclisin deputatı İmamverdi İsmayılov çıxış edərək ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərinin miqyasının ölçüyəgəlməzliyindən bəhs edib. Qeyd edib ki, Ümummilli Liderin qurucusu və yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın sevimli partiyasına çevrildi. Bunun isə tək bir səbəbi var idi - xalqın partiyanın sədrinə olan sevgisi, inamı. Çünki zaman göstərdi ki, xalq Heydər Əliyevə arxalanmaqla, onun ətrafında sıx birləşməklə öz gələcəyini təmin etmiş oldu.

Azərbaycan Texniki Universitetinin professoru, tarix elmlər doktoru Şikar Qasımlı vurğulayıb ki, Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. YAP-ın yarandığından cəmi 7 ay sonra hakim partiyaya çevrilməsi Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. Bu gün əminliklə demək olar ki, yaradıcısı Ümummilli Lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Heydər Əliyevin ideya və arzuları yaşayır. Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP böyük gücə çevrilib.

Rayon ziyalısı Oktay İsgəndərov çıxışında Azərbaycan dövlətini və xalqını sevən hər bir insanın bugünkü firavanlığa, davamlı ictimai-siyasi sabitliyə, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun durmadan artığına görə, Heydər Əliyevə və onun siyasi kursunu layiqincə davam etdirən ölkə Prezidenti İlham Əliyevə borclu olduqlarını vurğulayıb.

# Bərdədə gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il aprelin 14-də YAP Bərdə rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda partiya həyatında fəal iştirak edən gənclərə fəxri fərmanlar təqdim edilib, xatirə şəkli çəkdirilib.



AFƏT

# Adam kişi olar

***Kişi sözü bu qədərmi ucuzlaşıb, bu qədərmi qiymətdən düşüb, bu qədərmi adiləşib? Yeri gəldi-gəlmədi "adam kişi olar" kəlməsi işlənir. Hətta o qədər işlənir ki, lap çürüyü çıxır. İndiki bəzi gənclərə nə olub görəsən. Bəzi sözünü xüsusilə vurğulayım, çünki sözümün canı var. "Sehirli xalat" filmində bir deyim var: "Bu yaramaz uşağın böyüyüb kim olacağını düşünəndə, adamın tükləri biz-biz olur". Adam baş açmır ki, yedikləri yeməkdənmi, içdikləri sudanmı bu günə qalıblar. Saç düzümü, geyimi, xarici görünüşü bir tərəfə qalsın, danışıqları adamın ətini tökür. Bizim gəncliyimizdə oğlanlar arasında zarafatla deyilən bir söz vardı. Biri dostuna "kişi ol" deyəndə qarşı tərəf də ona eyni zarafatla "kişilər 41-45-də qaldı" deyərdi. Gənclər deyəndə də söyləyəcəklərim qətiyyən hamısına şamil olunmur. 44 günlük vətən müharibəsində canı-qanı, sağlamlığı bahasına qələbə qazanan da kişilik məktəbindən keçən gənclərimizdən olub. O gənclər ki, kişi sözünün ağırlığını, qiymətini bilib, o sözə görə canından, sağlamlığından keçiblər.***

Bayaq da qeyd etdim ki, sözümün canı var. Hər gün ictimai nəqliyyatdan istifadə edirəm. Keçən gün marşruta minib arxa tərəfə irəlilədikcə arxa tərəfdəki səs-küydən elə bildim dava edirlər. Bir neçə gənc oğlan elə mübahisə edirlər ki, səsləri bütün avtobusu bürümüşdü. Deyərdim ki, ətrafdakılar bəlkə də qorxularından, ya da "abırsızdan abrını gözlə" məsəli səslərini çıxarmırdılar. Oğlanlardan biri o qədər əsəbi idi ki, az qalırdı qarşısındakılarla əlbəyaxa olsun. Əsas sözü də "adam kişi olar" idi. Yanındakı dostları da gülməklərilə onu daha da özündən çıxarırdı, az qalırdı qarşısındakıları boğsun. Bunların mübahisəsindən belə başa düşdüm ki, söhbət mərcdən gedir. Mərcləri də bu olub ki, tanınmış blogerlə oynaya bilsən, biz sənin arxandayıq, hətta buna görə sənə qonaqlıq verəcəyik. Açıq-aydın danışıqlarından belə başa düşülür ki, gecə bu oğlanlardan əsəbi olanı sosial şəbəkələrdən birində tanınmış xanım blogerə dəfələrlə hədiyyə yollayıb, əlində olan-qalanını qıza peşkəş edib. Sonra həmin qız da ona oyun təklifi göndərib, dəfələrlə oynayıblar və oyunda uduzub. Sonuncu oyunu oynamağa onu yanındakı dostları vadar edib. Oğlana deyiblərmiş sən sonuncu oyuna qoşul, biz sənə xal-hədiyyə atacağıq və səni uduzmağa qoymayacağıq. Nəticədə isə oyunun sonunda verdikləri "kişi sözü"nün üstündə durmayıblar və oğlan uduzub.

Bunların davalarına baxa-baxa birdən yadıma Bakı milyonçuları Mayılovla Hacı Zeynalabdin Tağıyevin mərci düşdü. Uzun sözün qısası, rus müğənnisinin şəhərimizdə opera binasının olmadığı səbəbindən bir daha buraya gəlməyəcəyini rişxəndlə dediyinə görə, bu söz milyonçu Mayılova o qədər ağır gəlir ki, 1 ilə binanı tikdirəcəyini deyir. Bunu eşidən Hacı Zeynalabdin Tağıyev Mayılovla 1 ilə binanı tikdirəcəyi təqdirdə çəkilər bütün xərci ödəyəcəyinə mərc kəsirlər. Gözünə döndüyüm Mayılov da indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrını 1 ilə yox, 9 aya tikdirir. Mərcin nəticəsi məlumdur. İndi deyəcəyim odur ki, zamanında KİŞİLƏR gələcək nəsillərə miras qoymaq üçün milyonlarından keçib, heç uf da deməyiblər. Həmin KİŞİLƏR şəhərimizin gözəlliyi, insanların mədəni istirahəti üçün sərvətlər xərcləyiblər. İndi deyənləriniz olacaq ki, kimi kimlərə tay edirəm. Qətiyyən, sadəcə, bir anlıq mərclərin fərqi ağlımdan keçdi. Fikirləşdim ki, indiki bəzi "kişi"lərlə keçmişin KİŞİLƏRİNİN mərci fərqli olub, ya mərclərin kişilərə görə fərqi dəyişib?



# İrəvan Kənd Təsərrüfatı Texnikumunun təhsilimizdə rolu

*Qərbi Azərbaycan üzrə araşdırmaçı İradə Rizazadənin SİA-ya müsahibəsini təqdim edirik:*

**- İradə xanım, bildiyiniz kimi İrəvanda çox zəngin milli maarifçilik mühiti olub. Bir sıra ali və orta ümumtəhsil ocaqları fəaliyyət göstərib ki, bunlardan biri də İrəvan Kənd Təsərrüfatı Texnikumudur. Siz də həmin texnikumda müəllim kimi fəaliyyət göstərmisiniz. Texnikumun yaranma tarixi və fəaliyyəti barədə nə deyə bilərsiniz?**

- 1928-ci ildən başlayaraq kənd təsərrüfatı sahəsində əmələ gələn böyük dəyişiklik eyni zamanda, mexanizator, aqronom və zootexnik kadrlarının hazırlanması və təkmilləşdirilməsi tələbini irəli sürürdü. Bunsuz müasir maşınlardan məhsuldarlıqda istifadə etmək, əməyin mexanikləşdirilməsinə nail olmaq mümkün deyildi.

Sovet hakimiyyətinin ilk dövrlərində qısamüddətli kurslar vasitəsilə mexanizator kadrları hazırlanırdı. İlk dəfə belə bir kurs 1925-ci ildə İrəvan şəhərində təşkil edilmişdi. Sonrakı illərdə də bir sıra başqa rayonlarda da bu kimi qısamüddətli kurslar təşkil edilərək fəaliyyət göstərib. Müasir texnikadan məhsuldarlıqda istifadə etmək, əməyin mexanikləşdirilməsinə nail olmaq üçün 1928-ci ildə İrəvanda Erməni Kənd Təsərrüfatı Texnikumu təşkil edildi. Həmin ildə Erməni Kənd Təsərrüfatı Texnikumu nəzdində 36 nəfər tələbədən ibarət bir azərbaycanlı şöbəsi yaranaraq fəaliyyət göstərmişdi. Həmin şöbə azərbaycanlı rayonları üçün aqrotexnik və zootexnik kadrları hazırlanırdı. Texnikumun azərbaycanlı şöbəsinin müdiri Əli Yüzbaşıyev, təsərrüfat şöbəsinin müdiri isə Həsən Rəhimov təyin edilmişdi.

**- Erməni şovinizmi əhatəsində Erməni Kənd Təsərrüfatı Texnikumu nəzdində Azərbaycan bölməsinin fəaliyyətində nə kimi çətinliklər yaranırdı?**

- Bütün azərbaycanlı məktəblərində olan problemlər bu texnikumda da mövcud idi. Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda məlum olurdu ki, ilk tədris ilində 36 nəfər tələbədən 9 nəfəri məcburiyyət qarşısında qalaraq təhsillərini davam etdirə bilməmişdi. Tələbələr dözülməz şəraitə tab gətirə bilməyib, texnikumu tərk edirdilər. Hətta bu barədə o vaxtlar Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Qızıl şəfəq" qəzeti yazır ki, "tələbələrə nə üçün gedirsiniz?" sualını verdikdə cavabında deyirlər: "müdriyyət bizə baxmır, müəllimimiz yox, Abovyanda boş gəzməkdənsə Bakı texnikumlarına gedib elm öyrənmək lazımdır, son dəfə müdir (erməni) Tiflisə gedərkən neçə yüz manatlıq erməni və rus kitabları gətirdiyi halda, türkcə heç bir kitab da gətirməmişdir". Dərs kitablarının, proqramların, lazımı vəsaitlərin olmaması, digər tərəfdən isə azərbaycanlı müəllimlərinin çatışmaması tələbələrin müntəzəm dərs keçmələrini əngəlləyirdi. Ermənistanın şovinist rəhbərləri və müvafiq dairələri azərbaycanlı tələbələrə daşnak mövqeyindən yanaşırdılar. Texnikum haqqındakı məlumatlardan məlum olur ki, 1932/33-cü tədris ilinə qədər azərbaycanlı şöbəsinin dərsləri vaxtlı-vaxtında başlamamışdır. 1933-cü ildə isə Erməni Kənd Təsərrüfatı Texnikumunun nəzdində fəaliyyət göstərən azərbaycanlı şöbəsi müstəqil texnikuma çevrilmişdi. İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu müstəqil texnikuma çevrildiyi vaxtda xüsusi binası, laboratoriyaları, fənn kabinetləri, yataqxanası, yeməkxanası, mədəni müəssisələri xüsusi təhsil və təsərrüfat şöbələri belə yox idi. Texnikumun illik büdcəsi demək olar ki, çox az idi. Bu ağır və dözülməz şəraitə baxmayaraq, azərbaycanlı tələbələr təhsillərini davam etdirirdilər.

Yeni yaranmış İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumuna tanınmış maarif xadimlərindən olan Həbib Məhəmmədzadə direktor təyin olunandan sonra işlər müəyyən qədər öz məcrasına düşür. Əli Həsənov isə texnikumun tədris işləri üzrə şöbə müdiri vəzifəsinə təyin edilir.



Texnikumun fədakar kollektivinin yorulmaz səyi sayəsində 1935-1936-cı tədris ilini yüksək göstəricilərlə başa vuran bu təhsil ocağı 1936-1937-ci tədris ilini hazırlıqlı qarşılamaq üçün qarşıya qoyulan məsələlərin həllini uğurla başa çatdırmışdır. Texnikumun rəhbərliyinin fəaliyyəti nəticəsində 1936-1937-ci tədris ilində ixtisaslı müəllim kadrları ilə təmin edilmişdir ki, onların da hamısı ali təhsilli idi. 1936-cı tədris ilində texnikuma qəbulun həyata keçirilməsinə xüsusi diqqət yetirilmiş və əlavə 2 qrupun açılması nəzərdə tutulmuşdu.

**- Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda, təhsil müəssisəsinin Həbib Məhəmmədzadənin təqdirəlayiq fəaliyyəti barədə nə deyə bilərsiniz?**

- Əlbəttə ki, Həbib Məhəmmədzadə həmin dövrlərdə Qərbi Azərbaycanda qabaqcıl maarif xadimi kimi tanınırdı. Eyni zamanda, Moskvada ali təhsil almışdı. Onu da qeyd edim ki, o İrəvanın tanınmış, görkəmli Məhəmmədzadələr soyunun nümayəndələrindən idi. Həbib Məhəmmədzadənin texnikuma direktor təyin olunmasından sonra bu təhsil ocağında əsaslı dönüş yaradılmışdır. Qısa zaman ərzində onun rəhbərliyi ilə texnikumda zəngin laboratoriyaların yaradılması, keçirilən fənlərin tələbələrə daha yaxşı mənimsənilməsi üçün praktiki cəhətdən əlaqələndirilməsi məqsədilə təşkil edilmiş laboratoriyalarda çalışmaq üçün bir sıra mühüm alət və avadanlıqların ələ gətirilməsinə nail olunmuşdur. Həbib Məhəmmədzadə təkcə texnikumun maddi texniki bazasının möhkəmləndirilməsi baxımından deyil, eyni zamanda bu təhsil ocağına tələbə qəbulunun sayının artırılması və tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində də ciddi dönüş yarada bilmişdir. Qərbi Azərbaycanın azərbaycanlılar yaşayan rayonlarında, bölgələrində kənd təsərrüfatı və maldarlıq sahəsində çalışmaq üçün daha çox kadrlara ehtiyacı olan rayonlardan tələbə qəbulunun həyata keçirilməsinə nail olmuşdur. İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı texnikumu getdikcə kənd təsərrüfatı kadrlarına olan ehtiyacın artması ilə əlaqədar olaraq tələbə kontingentinin sayını artırdı. 1936-cı ildə texnikumda iki şöbə fəaliyyət göstərirdi ki, onlardan biri aqrotexnik, digəri isə zootexnik şöbəsi idi. Həbib Məhəmmədzadənin texnikuma rəhbərliyi etdiyi dövrdə bu təhsil ocağı bütün lazımi vəsait, zəruri olan alətlər və avadanlıqlarla təchiz edilmişdir. 1936-cı ildə texnikumun binası əsaslı təmir edilmiş, əlavə yardımçı auditoriyaların tikintisi həyata keçirilmişdir. Amma bununla yanaşı bir sıra ixtisaslar üzrə ədəbiyyatların çalışmazlığı problemi hələ də qalmaqda idi.

**- İrəvandakı milli təhsil müəssisələri, o cümlədən, Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında nə kimi rol oynayırdı?**

- İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu təkcə kənd təsərrüfatı üzrə mütəxəssislər hazırlamırdı. Eyni zamanda, texnikumun müəllim və tələbə kollektivi İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafına, ana dilində yeganə mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetinin yayılmasında və onun abunəçilərinin sayının artırılmasında da böyük rol oynayırdılar. Əgər həmin dövr İrəvan Azərbaycan ədəbi-mədəni mühitində fəaliyyət göstərən yaradıcı ziyalıların fəaliyyətimə diqqətlə nəzər salsaq, görərik ki, həmin ədəbi qüvvələrin əksəriyyəti İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun və İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun müəllim və tələbələridir. Təkcə 1933-cü ildə texnikumun müəllim və tələbə kollektivi İrəvan azərbaycanlı məktəbləri ilə birlikdə "Qızıl şəfəq" qəzetinə 787 manat 50 qəpiklik abunə yazmışdır.

**- Sözsüz ki, tədrisin keyfiyyətini şərtləndirən başlıca amil tədris ocağının müstəqil binaya malik olmasıdır. Tədrisin yüksək səviyyədə qurulmasını şərtləndirən ən başlıca cəhət müstəqil bina ilə təmin olunmasıdır. İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu neçənci ildə müstəqil bina ilə təmin edildi? Bu ayrı-seçkiliyin səbəbi nə idi?**

- Əvvəla, erməni məktəblərindən fərqli olaraq Azərbaycan təhsil müəssisələrinə qarşı ayrı-seçkilik hər zaman özünü açıq şəkildə büruzə verirdi. Amma buna baxmayaraq texnikumun direktoru Həbib Məhəmmədzadənin ciddi səyi sayəsində texnikum 1934-cü ildə müstəqil bina ilə təmin edildi. Texnikum müstəqil bina ilə təmin edildikdən sonra 1934-cü tədris ilinə hazırlıq işlərini uğurla başa çatdıraraq dərslər vaxtında başlamışdır. Texnikumun ali təhsilli Rəhim Allahverdiyev, Hüseyn Əliyev və s. ixtisaslı müəllim kadrları ilə təmin edilməsilə yanaşı, tələbələrin müxtəlif ləvazimatlarla təchiz edilməsi, burada ciddi nizam intizamın yaradılması bu tədris ocağının uğurlarını getdikcə daha da artırırdı. Artıq müstəqil bina ilə təmin edilən İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunda tədrisin yüksək səviyyədə qurulması üçün geniş imkanlar yaranmışdı.

Onu da qeyd edim ki, Hüseyn Əliyev bağbançılıq, Əli Yüzbaşıyev riyaziyyat, Rəhim Həsənov maldarlıq və ciftləşmə, Hüseyn Səfərov idman fənlərini tədris edirdilər. Texnikumun rəhbərliyi 1935-1936-cı tədris ilində təhsilin keyfiyyəti uğrunda mübarizəni genişləndirmiş və tədris ilini uğurla başa vurmuşdur. 1936-cı ilin yay imtahan sessiyasına hazırlıq, zəif tələbələrin hazırlaşdırılması işləri işlərində texnikumun müəllimlərindən Rəhim Allahverdiyev, Əli Həsənov və başqaları var qüvvəsi ilə çalışmışlar. Onlar dərslərindən əlavə zəif tələbələrlə fərdi qaydada məşğul olmuş, onların əlaçı tələbələr sırasına qoşulmasına böyük köməklik göstərirdilər. 1936-cı tədris ilinin yekunlarına nəzər saldıqda məlum olur ki, ümumi tələbələrin 31 faizi əla, 49 faizi yaxşı, 13 faizi orta, 7 faizi isə kafi qiymət almışlardı. Texnikumun 3-cü kurs tələbələri Abbas Zeynalov, Hüseyn Novruzov, Azər Zeynalov, Yaqub Məhərrəmov, Zəhra Süleymanova və başqaları yay imtahan sessiyalarını uğurla başa vurmuş əlaçı tələbələr sırasına daxil olmuşdular. İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu həmin vaxtlarda mövcud dövrün tələblərinə uyğun olaraq Ermənistanda keçirilən sosializm yarışında iştirak edən texnikumlar içərisində uğurlu fəaliyyətinə görə ikinci yeri tutmuş və mükafata layiq görülmüşdür. Əlbəttə ki, bu təhsil ocağının böyük uğurlara nail olmasında onun fədakar rəhbərliyi və kollektivinin böyük xidməti vardır.

Texnikumun 1935-36-cı tədris dövrünə nəzər saldıqda məlum olur ki, yeni mexanizator kadrlarının yetişdirilməsi, burada təhsilin səmərəsini artırmaq, bilikləri təcrübə ilə əlaqələndirmək üçün lazımi şərait yaradılmışdı. Texnikumun rəhbərliyi azərbaycanlı kəndlərində kənd təsərrüfatı və maldarlıq sahəsində çalışmaq və kadr ehtiyacını ödəmək üçün tələbə kontingentinin sayını həmin ehtiyaca uyğun müəyyənləşdirməyə çalışırdı. 1935/36-cı tədris ilində texnikumda iki şöbə fəaliyyət göstərirdi ki, bunlar da aqrotexnik və zootexnik şöbələrindən ibarət idi.

Texnikum mövcud olduğu ilk 8 il ərzində yəni, 1936-cı ilə kimi azərbaycanlı kəndlərinə 115 nəfər mütəxəssis hazırlamış, bunlardan 101-ci aqrotexnik, 14-ü zootexnik ixtisasına yiyələnmiş kadrlar yetişmişdir. Bundan başqa, 1936-cı ildə texnikumu bitirən məzunlardan ikisi Ümumitttifaq Zoologiya İnstitutuna, 15-i isə Azərbaycan Kənd Təsərrüfatı İnsti¬tutuna ali təhsil almaq üçün göndərilmişdir. Buraxılan məzunların əksəriyyəti isə Vedibasar, Ağbaba, Başarkeçər, Dilican, Hamamlı və başqa pambıqçılıq, taxılçılıq və heyvandarlıq rayonlarında çalışırdılar. Vedi rayonunda Zeynal Bayramov, Hamamlıda Abuzər Rzayev, Başarkeçərdə Məhəmməd İsmayılov, Üç müədzində Rza Bayramov, Zəngibasarda Həsən Həsənov kənd təsərrüfatının inkişafında böyük işlər görürdülər.

Texnikumda istehsalat təcrübəsi bütün tədris prosesinin üzvi hissəsi olmuşdur. Nəzəri biliyi təcrübə ilə əlaqələndirmək onu təcrübədə tətbiq etmək üçün tələbələrin bu sahədə köməyə böyük ehtiyacı yarandığından texnikumun tədris planında 1935-1936-cı təhsil üçün 400 saatlıq istehsalat təcrübəsi keçirilmişdi. İstehsalat təcrübəsi texnikum rəhbərliyinin müəyyən etdiyi İrəvandakı zavodlarda, Äləyəz, Şurabad sovxozunda keçirilmişdir.

**Ardı Səh. 12**

# İrəvan Kənd Təsərrüfatı Texnikumunun təhsilimizdə rolu

Əvvəli-Səh-11

Tələbələr həmin zavod və sovxozlarda təcrübə keçməklə yanaşı, eyni zamanda texnikumun öz təsərrüfatında da əkinçilk və bağçılıqla bağlı təcrübə keçirdilər. 1935-ci ildən texnikuma 3 hektar bağ və əkinçilk üçün xüsusi torpaq sahəsi ayrılmışdır. Bu torpaq, təcrübə işlərində texnikum üçün əlverişli olduğu kimi, eyni zamanda təsərrüfatdan əldə edilən gəlir də bu təhsil ocağının müəyyən ehtiyacını ödəyirdi. Texnikum 1935-ci ildə həmin təsərrüfatdan 24 min manatlıq məhsul götürmüşdür. Bu da texnikumda tələbələrin hərbi, siyasi səviyyələrinin yüksəldilməsi, bir neçə fənn kabinetlərinin nizama salınmasına və burada mədəni tədbirlərin həyata keçiriməsi işinə sərf edilmişdir. İrəvan Azərbaycan Kənd Təsərrüfatı Texnikumu müstəqil təhsil ocağına çevrildikdən sonra, öz varlığının üç ili ərzində həmişə Ümumittifaq texnikumları yarışında iştirak etmiş və bu yarışlarda birinciliyi qazanaraq dəfələrlə mükafatlandırılmışdır.

1935-ci tədris ilində İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunda maldarlıq, bağpencərçilik və çölçülük şöbələri də fəaliyyət göstərirdi. Bu istehsalat təcrübəsində, tələbələr müəyyən olunmuş sovxoz və kolxozlarda təcrübə keçməklə yanaşı həm də yüksək göstəricilərə nail olmuşdular.

**- Texnikumun məzunları barədə nə deyə bilərsiniz? Azərbaycan təhsil tarixində İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun məzunlarının nə kimi rolu olub?**

- Əlbəttə ki, texnikum haqqında məlumatlarda 1936/37-ci tədris ilində bu tədris ocağını uğurla başa vuran tələblərdən Surə Mehdiyeva, Sədi Tağızadə, Qurban Əliyev, Əminə İsmayılova, Tofiq İsmixanov, Hüseyn Novruzov, Abbas Zeynalov, Zəhra Süleymanova, Cümşüd Həsənov, Tahar Abbasov, Haxlı Həsənov, Hüseyn Məmmədov, Əli Bayramov, Salman Kazımov, Ellər İsmayılov, Tapdıq Qocayev və başqalarının adlarına rast gəlmək olur.

Amma onu da qeyd edim ki, Azərbaycanın bir sıra görkəmli tanınmış elm, mədəniyyət xadimləri akademik Məmmədtağı Cəfərov, akademik Məmməd Salmanov, prof. Bağır Bağırov, prof. Sadıq Şükürov, böyük ziyalı pedaqoq İbrahim Xəlilov, kənd təsərrüfatı elmləri namizədi Müzəffər Zeynalabdin oğlu Abbasov, ictimai xadim Novruz Dünyamalıyev, baytarlıq elmləri namizədi, Nazim Əli oğlu Tağıyev, iqtisad elmləri namizədi Fərrux Heydər oğlu Abbasov və başqaları bu tədris ocağının məzunları olmuşlar.

İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu 1967-cı ilə qədər azərbaycanlı kəndlərinə 1000 nəfərdən artıq orta ixtisas təhsilli kadr vermişdir ki, bunlardan da 400 nəfəri texnik mexanizator idi. Onu da qeyd edim ki, texnikumun nəzdində həm də qiyabi şöbə fəaliyyət göstərirdi.

**- Texnikumun sonrakı taleyi barədə nə deyə bilərsiniz?**

- Məlumdur ki, erməni şovinist qüvvələri İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texikumunun fəaliyyətini əngəlləmək üçün müxtəlif vasitələrə əl atırdılar. Texnikumu mərkəzdən uzaqlaşdırıb daha ucqar bir bölgəyə köçürmək istəyirdilər. Amma azərbaycanlı ziyalıların iradəsi sayəsində İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumu 1983-84-cü tədris ilində Zəngibasar rayonunun Dəmirçi kəndinə köçürüldü. Elə həmin ildən texnikumun adı dəyişdirilərək Dəmirçi Sovxoz Texnikumu adlandırıldı. 1988-ci ilə qədər fəaliyyət göstərmiş bu tədris ocağına müxtəlif vaxtlarda Əli Yüzbaşıyev, Əsgər Kən¬gərlinski, Həbib Məhəmmədzadə, Xəlil Səfərov, İsmayıl Şükürzadə, Məmməd Fərəcov, Rza Həsənov, Abbas Sadıqov, Sabir Əsədov, Cəfər Elyasov, Abbas Mustafayev, Səfər Səfərov və Nüsrət Sadıqov rəhbərlik etmişdir. Bu il yaranmasının 95 ili tamam olan İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun da Azərbaycan təhsil tarixində özünəməxsus yeri və rolu vardır.

**_Ləman Əlizadə_**

# Ermənistan regional terrorizmə və cinayətkarlığa yol açır

***Azərbaycan əsgərinin Ermənistanda işgəncəyə məruz qalması ağır cinayət halıdır. Müharibə qanunlarına görə, hətta müharibə vaxtı əsir düşən hərbçilərə və mülki vətəndaşlara işgəncə vermək şəxsiyyəti alçaldıcı hər hansı hərəkətlər etmək qəti qadağandır. Bu hal məhz beynəlxalq hüquq və qanunlarla cinayət əməli [illegible] hesab edilir.***

Həmçinin mövcud beynəlxalq konvensiyalara [illegible] əsasən qeyri-müharibə [illegible] vaxtı təsadüf nəticəsində [illegible] əsir düşmüş və ya əsir [illegible] götürülmüş hərbçilərə və [illegible] qeyri-hərbçilərə mülki [illegible] sakinlərə qarşı milli irqi və [illegible] dini zəmində kin və nifrətdən qaynaqlanan şəxsi [illegible] düşmənçilik məqsədilə fiziki zor tətbiq edilməsi xüsusi qəddarlıq və amansızlıqla işgənclər verilməsi onların şəxsiyyətinə qarşı alçaldıcı hərəkətlər edilməsi barbarlıq terroristlik canilik vəhşilik və vandalizm aktıdır.

Şəxsin şərəf və mənliyinin alçaldılması məqsədilə edilən bütün vandalizm hərəkətləri irqi zəmində kin və nifrətdən qaynaqlanan şəxsiyyətə qarşı fiziki və mənəvi terror aktıdır. Vandalizm və terrorun forma və kateqoriyalarından asılı olmayaraq bütün növləri beynəlxalq qanunlarla ən ağır cinayət əməlidir. Ermənistana əsir düşmüş Azərbaycan əsgərinin fiziki və mənəvi cəhətdən işgəncəyə məruz qalması yuxarıda sadalanan qəbildən olan terror halıdır. Baş verən hadisə Ermənistan dövlətinin və erməni xalqının iç üzünü açıb ortaya qoyur. Azərbaycan hərbçisinə qarşı törədilən cinayət hadisəsi Ermənistan dövləti və erməni xalqının nə qədər barbar və vandal olduğunu göstərir. Heçbir müharibə qanunlarında əsirə işgəncə etmək yoxdur və bu hal beynəlxalq qanunlarla qəti qadağandır və ağır cinayət hadisəsidir. Ermənistan bir daha beynəlxalq hüquq normalarını tapdaladığını sərgiləmiş oldu. Bu hal bir daha göstərir ki beynəlxalq hüquq tendensiyalarının və beynəlxalq qanunların Ermənistan üçün heçbir önəmi yoxdur və beynəlxalq qanunlar fundamental hüquq Ermənistan üçün heçbir əhəmiyyət kəsb etmir. Bu da o deməkdir Ermənistan beynəlxalq qanunlardan kənar qəsbkar və terrora meylli bir dövlətdir.

Aprelin 11-də Ermənistan silahlı qüvvələrinin qəflətən və anidən Azərbaycan sərhədinə hücum etməsi və hərbi təxribatlar törətməsi də ağır terror hadisəsidir və bir ölkənin suveren sərhədlərinə qarşı törədilmiş hərbi cinayət halıdır. Baş verən erməni təxribatı və terroru nəticəsində Azərbaycan hərbçilərinin həlak olmasının məsuliyyəti Ermənistan silahlı qüvvələrinin həmçinin bilavasitə birbaşa Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərindədir. Ermənistan kənar qüvvələrin məhz havadarı İran molla rejiminin diktəsi və [illegible] təhriki ilə bölgədə eskalasiya yaratmağa və hərbi təxribat törətməyə [illegible] bir sözlə terror dalğası əsdirməyə və qan tökməyə can atır. Azərbaycanla sərhəddə törədilən terror və hərbi təxribat əməlində və əsir düşmüş Azərbaycan hərbçisinə qarşı qeyri-[illegible]etik hərəkətlər fiziki zor tətbiqi və işgəncə etməsi [illegible] insanlıq xarici olan əməldir [illegible] barbarlıq və terrorislik və vandalizm faktıdır. Bütün bunlar Ermənistan dövlətinin qeyri-insani simasını və vandallığını göstərmiş olur.

Ermənistan dövləti öz havadarlarının xüsusən İran molla rejiminin diktəsilə bölgədə terror və təxribat yaratmağa hər vəchlə və bütün vasitələrlə bölgənin təhlükəsizliyini pozmağa çalışır. Aydın görünür ki Ermənistan dövləti qəsbkarlıq və işğalçılıq siyasətindən əl çəkməyərək terror təşkilatları və terror dövlətləri ilə birgə regional sülhü sabitliyi və regional təhlükəsizliyi pozaraq məhz terror dövləti olan İranın dəstəyi və yardımı ilə regional cinayətlər törədir. Ermənistanın bölgədəki bütün hərbi təxribat və diversiya hərəkətlərini kəşfiyyat və pozuculuq fəaliyyətini terror və vandalizm halları törətməsini həmçinin bütün bunların fonunda Azərbaycan hərbçisinə qarşı həyata keçirilən işgəncə və barbarlıq faktını şiddətlə pisləyirik. Aidiyyatı Beynəlxalq hüquq təşkilatları və hüquqi və siyasi dairələr beynəlxalq ictimaiyyət bütün bu barbarlıq təxribat və hərbi cinayət əməllərini görməlidir.

Beynəlxalq hüquq Azərbaycan dövlətinin tərəfindədir. Azərbaycan bu məsələdə tam haqlıdır və Azərbaycan dövlətinin və xalqının haqqlı mövqeyini tam dəstəkləyirik və hər zaman regional cinayətkarlığa və regional terrorizmə qarşı mübarizədə Azərbaycan dövlətinin və xalqının yanındayıq.

***İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyi***

***"Ermənistan hərbçilərinin əsir düşən Azərbaycan əsgərinə qarşı hərəkəti vəhşilik və insanlığa sığmayan bir hərəkətdir. Bu, bir daha göstərir ki, Ermənistan hərbçilərinə, insanlığa sığmayan davranışlar və Azərbaycana qarşı nifrət hissi aşılanır.***



# "Ermənistanı vəhşilikdən heç nə uzaqlaşdıra bilməz"

Onlar silahsız, təsadüfən əsir düşmüş insana qarşı ən alçaq hərəkətləri etməyə hazırdılar. Azərbaycan tərəfi isə əsir düşmüş erməni əsgərlərinə qarşı həmişə humanist davranışlar göstərib. Eyni zamanda, onlara tibbi xidmətlər göstərilib və öz ailələri ilə danışması üçün şərait yaradılıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsi əsiri müayinə etməsi üçün şərait yaradıb: "Ermənistan tərəfindən isə heç vaxt eyni addımlar atılmayıb. Azərbaycan artıq öz etirazını bildirərək beynəlxalq ictimaiyyətin diqqətini həmişə bu məsələyə yönəldir. Təəssüf edirik ki, beynəlxalq təşkilatlar, xarici ölkələr bu məsələdə Ermənistan tərəfə öz qətiyyətli etirazını bildirmirlər. Diplomatik bəyanatlar heç nə həll edə bilməz. Heç nə Ermənistanı azğınlıqdan, vəhşilikdən uzaqlaşdıra bilməz.

Azərbaycan tərəfi öz əsgərini əsirlikdən qurtarması üçün bütün mümkün addımları atacaqdır. Dövlətimiz öz vətəndaşını, əlaxsus öz əsgərini heç vaxt darda qoymayacaq".

***Ləman***



Dmitri Solonnikov: "Ermənistan sərhəddə qəsdən yeni eskalasiya törədib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Ermənistan Azərbaycana qarşı bu təxribatı Qərbin sifarişi ilə təşkil edib"

***Rusiyalı politoloq, Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına Azərbaycan və Ermənistan arasında növbəti eskalasiya haqqında fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.***



**- Bildiyiniz kimi, Azərbaycanla Ermənistan sərhədində növbəti eskalasiya baş verdi. Bundan sonra Moskva bəyan etdi ki, tərəflər sülh müqaviləsi əsasında Bakı və İrəvan nümayəndələrinin Rusiya ərazisində birbaşa görüşünə razılaşıblar. Razılaşmanın səbəbi nə idi?**

- Təhlükə Qafqazın havasındadır və İrəvan anlayır ki, manevr etmək cəhdi boşa çıxa bilər. Görünən odur ki, Ermənistan qəsdən yeni eskalasiyaya səbəb olub. Axı bu baş verəndə respublikanın müdafiə naziri Brüsseldə idi. Və o, tez İrəvana qayıtmağa məcbur oldu. Təsadüf? Yox. Bu, İrəvanın əvvəlcədən planlaşdırdığı fəaliyyətin sübutudur. Brüsseldə, NATO yuvasında olmaq, şikayət etmək, bəyan etmək imkanı, görürsən, biz sizsiz edə bilmərik. Kömək edin.

Baxın, Rusiya Xarici İşlər Nazirliyi eyni vaxtda Ermənistanın NATO təlimlərində iştirakı ilə bağlı İrəvandan izahat gözlədiklərini açıqladı, eyni zamanda Moskvaya Ermənistan-Azərbaycan nizamlanması üzrə danışıqlara dəvət etdilər. İrəvanın qeyd etdiyi sorğuların heç birinə cavab verməməsi Ermənistan və Rusiyanın iqtisadi layihələrini daha da şübhə altına almaq deməkdir. Aydındır ki, bu, Rusiyadan daha çox Ermənistana lazımdır.

Elə bu günlərdə Rospotrebnadzor Rusiya ərazisinə Ermənistanın süd məhsullarının tədarükünü dayandırmaq qərarına gəlib. Sadəcə olaraq Rusiya ilə münasibətləri götürüb kəsmək Ermənistan üçün sərfəli deyil. Bu, ciddi ictimai-siyasi zərbə olacaq. Ona görə də, İrəvan Rusiya ilə münasibətlərdə nəyəsə qismən razılıq vermək qərarına gəlir. Müttəfiqlik münasibətlərində oyun oynamağa cəhd edir.

**- Ermənistan mətbuatında mənbələrə istinadən xəbər yayıldı ki, ABŞ dövlət katibi və Avropa Şurasının rəhbəri Çarlz Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş olacaq. Bu təklif iki ay əvvəl edilib. Sonra eskalasiya və Moskvanın vasitəçiliyi oldu... Bunlar əlaqəli amillərdir, ya yox?**

- Paşinyan hesab edir ki, prosesdə Avropanın, ABŞ-ın regionda olması onun xeyrinədir, çünki Fransada, ümumilikdə Avropada və ABŞ-da strukturların təmsilçiləri üzərində hərəkət edən güclü erməni lobbisi var.

Ermənistanın bu işdə hərəkətləri belə izah olunur: ən azı nümayişkaranə şəkildə Bakı və Moskva ilə görüşlərə getmək lazımdır. Yeni danışıqların nə dərəcədə məhsuldar olacağı sual altındadır. İrəvan üçün Ermənistan-Azərbaycan nizamlanması baxımından məsələ o cür dayanmır. Baxın, İrəvan çoxdandır ki, "biz heç bir danışıqlara getmirik, bütün görüşlərdən imtina edirik, istənilən görüş yalnız bizim şərtlərimizlə olmalıdır" mövqeyini nümayiş etdirir. İndi də görüşün özündən əvvəl əvvəlcədən tələblər irəli sürülür: biz buna imza atmayacağıq, bununla razılaşmayacağıq. Yəni əvvəlcədən elan olunur ki, konstruktivlik əvvəlcədən şübhə altına alına bilər. Görüş yəqin ki, baş tutacaq. Amma 100% əminliklə demək mümkün deyil. Və daha sonra onun məhsuldarlığını İrəvan nümayəndələrinin bu görüşə hansı əhval-ruhiyyə ilə gələcəyi müəyyənləşdirəcək.

Eyni zamanda, son vaxtlar Ermənistan-Azərbaycan nizamlanmasında vəziyyətin müəyyən dərəcədə dəyişdiyini söyləmək olmaz. Yeni heç nə müşahidə olunmur. Vəziyyət əsasən eynidir. Baş nazir Nikol Paşinyanın təmsil olunduğu Ermənistanın hazırkı rəhbərliyi bəzi sənədləri imzalayaraq Azərbaycanla münasibətlərin normallaşması prosesini maksimum dərəcədə uzatmağa çalışır.

Ermənistanın baş naziri iki səbəbə görə sülh müqaviləsinin imzalanmasını gecikdirir: Paşinyan səmimi şəkildə inanır ki, (və o, haqlı da ola bilər) bu sənədi imzalayan kimi, sərhədin demarkasiya parametrlərini müəyyənləşdirən kimi ona ehtiyac qalmayacaq: mavr işini gördü, mavr gedə bilər. Nəticə: Ermənistan dövlətinin başçısı 44 günlük müharibəni uduzdu, ondan sonra hər cür sənədlərə imza atdı. O, artıq siyasətdə lazım deyil. O, bütün bunlara imza atan kimi Ermənistan rəhbərliyindən uzaqlaşdırılacağından hıqiqətən qorxur. Onun üçün bu, təkcə siyasi deyil, həm də sistem baxımından qorxuludur: Ermənistanda çoxlu sayda korrupsiya halları ola bilər. Bəs bütün bunlardan sonra Paşinyan nə etməlidir? Ya daha irəli getməlidir, ya da himayəçilik ümidi ilə xaricə getməlidir,hansı ki, onu oradan ekstradisiya etməyəcəklər. Yaxud İrəvanda özü üçün ən pis ssenarini gözləməlidir. Ölkəni tərk etmək ona heç nəyə zəmanət vermir. Bildiyimiz kimi, avropalı, amerikalı havadarlar əvvəlki "peyklərini" artıq onlara ehtiyac duymadıqları təqdirdə təhvil verirlər. Paşinyan üçün vəziyyət ağırdır. Və inandığı kimi, sona qədər dirənməlidir.

İrəvan və Qərb Ermənistanı postsovet məkanından ayırmaq, Ermənistandan "Ukrayna 2.0" qurmaq strategiyasını həyata keçirəcək. Belə bir ideyanı həyata keçirmək üçün NATO-nu, Avropa İttifaqını, Aİ-dən rəsmi olaraq "müşahidəçi" adlandırılan mülki geyimli NATO hərbçilərini Zaqafqaziyaya sürükləmək üçün münaqişə lazımdır. Bu missiya NATO strukturudur və onun məqsədi Ermənistanı KTMT-dən çıxmasına hazırlamaqdır. Bunu asanlaşdırmaq üçün digər vasitə kimi Azərbaycan və Ermənistan sərhədində son eskalasiya təşkil edildi. İrəvan bütün bunları bunu bəyan etmək üçün etdi: baxın, atışma oldu, KTMT bizi müdafiə etmədi.





**- Ermənistan KİV-i Aİ-nin Ermənistan ərazisində yerləşən missiyasının rəhbərinin eskalasiyanın baş verdiyi zonaya getməkdən imtina etdiyi barədə məlumat yayıb. Aİ qoşunların çıxarılması ilə bağlı ənənəvi çağırışla məhdudlaşıb...**

- Aİ siyasətçiləri narahatdırlar ki, onlar öz vətəndaşlarına Ermənistanı niyə dəstəkləməyə davam etdiklərini izah etməli olacaqlar.

Qərbin bu gün heç kimə borcu yoxdur, ancaq öz əhalisinə Cənubi Qafqazda nə üçün hərəkətə keçməyin lazım olduğunu izah etməyə məcburdur. Fransa eskalasiya ilə bağlı yenidən balanssız mövqe nümayiş etdirərək Azərbaycanın Ermənistanı az qala işğal altında saxladığını bəyan edib. Söz yox ki, bu gün Makronun ölkə daxilində həqiqətən çətin vəziyyəti var. Mürəkkəb vəziyyətdədir, onun seçiciləri ilə ünsiyyət qurması və başqa şeylərlə yanaşı, xarici siyasət addımlarını legitimləşdirməsi lazım olduğunu göstərir.

Qeyd edim ki, Rusiya Federasiyası, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatı imzalamasından keçən 2,5 il ərzində Rusiya özünü əsl vasitəçi kimi təmkinlə aparıb, belə mürəkkəb tərəflərə münasibətdə balansı qoruyub. Moskva bu yanaşmaya sadiq qalan tərəfdir.

***Tərcümə - Elçin Bayramlı***

# “Kəndskoy” burqer

## FELYETON









***Hə, yazın bax bu günlərində Fatma xala durur kənddən gəlir şəhərə oğlugilə. Əlinə keçəndən-otdan-alafdan, göy-göyərtidən də günlərlə yığıb tədarük edir ki, bəs şəhər yeridir, hardan alırlar, hardan tapırlar, aparım, orada uşaqlara qutabdan, kətədən bişirim, yesinlər. Arvad gəlib çıxır şəhərə. Oğlunun işi olduğu üçün heç anasını qarşılaya da bilmir. Ana da ağır çantaları ilə bu avtobusdan düşüb o birinə minə-minə birtəhər ki, gəlib çıxır evə.***

Qapının zəngini basır, gəlini də handanhana qapını açır, arvada çantalarını içəriyə daşımağa da kömək etmir. Fatma xala özü iki ayaq qayıdıb kənddən gətirdiyi nemətlər dolu çantalarını içəriyə daşıyır.

Gəlini:

-Ay Fatma xala, bu çantalara nə yığmısan belə?

Fatma xala:

-Yaz nemətləridir, bala, nə olacaq?

Gəlini:

-Niyə burada bunlardan yoxdur ki, ordan bura özünü yükləmisən?

“Yükləmisən, sözə bax”,-deyə Fatma xala qapının ağzındaca gəlinindən ürəyinə iynə kimi batan ilk atmacanı alır. Lakin nə desin, qanan bineyi-qədimdən qanmazın qulu olmayıbmı?

Fatma xala keçir içəriyə, oturub bir stəkan çay içmədən, bir az dincəlmədən mətbəxə gedir ki, bəs çantalarını boşaltsın, soyuducuya yerləşdirsin, xarab olmasınlar. Fatma xalanın öz kəndlisi olan gəlini heç bir dəfə demir ki, ay xala, qoy mən yerləşdirim, sən istirahət et. Kənarda dayanıb arvadı süzür. Deyir ki, bəs mənim allergiyam var, bu ot-alafa əl vura bilmirəm. Ardınca da deyir ki, nəyə lazım idi axı bu qədər şey. Kimdir ki, yeyən? Uşaqlar bunların heç birini tanımır. Mən də ki, çoxdan unutmuşam. Yesə, bəlkə oğlun yeyə, ona da bu qədər yenə çoxdur.

Fatma xala nə etsin, qəti dillənmir. Lakin ürəyindən dərin bir sızıltı keçir. Bu ot-alafin hər biri üçün bir dəfə yerə əyildiyini xatırlayır, torpağın yaraladığı barmaqlarının başına nəzər salıb dərin bir ah çəkir. Çantaların hər birini açıb soyuducuya yığdıqdan sonra, “qızım, mənə bir çay ver”,- deyir.

Gəlini çayı gətirib masanın üstünə qoyub gözdən itir. Fatma xala da çayını içib, divanda bir az uzanıb istirahət edir. Birazdan sonra qalxıb yenidən mətbəxə keçir ki, xəmir yoğursun, kətədən, qutabdan bişirsin ki, oğlu, nəvələri gələnə hazır olsun.

Fatma xala xəmiri yoğurur, acımağa qoyandan sonra gətirdikləri göy-göyərtidən yuyub doğramağa, qutabın içini hazırlamağa başlayır. Elə bu ərəfədə dalbadal qapının zəngi çalınır. Nəvələri bir-birinin ardınca gəlir. Nənə ilə görüşəndən sonra ona müəmmalı baxışlarla baxır və “ay nənə, nə bişirirsən belə?”- deyirlər. Nənə də cavab verir. Lakin uşaqlar təəccüblə nənəni süzürlər.

Nə isə.. Fatma xalanın gəlini başda olmaqla nəvələri də otaqlara çəkilirlər. Qadın mətbəxdə tək qalır. Başını aşağı salıb xəmir yayır, içlik qoyur, bükür, bişirir. Ətrafa gözəl rayihə yayılır. İşini bitirəndən sonra ortalığı səliqəyə salan Fatma xala sonda çaydanı doldurub ocağın üstünə qoyur ki, çay da hazır olsun.

O, mətbəxdən çıxanda artıq bayırda gözgözü görmürdü. Birazdan qapı açılır, oğlu gəlir. İçəriyə girən kimi “evdən nə gözəl ətir gəlir. O dəqiqə bilinir ki, anam buradadır”,- deyir. Anası ilə görüşəndən, nə var, nə yox edəndən sonra Fatma xala dəmlədiyi çaydan və boşqaba yığdığı kətə, qutabdan masanın üzərinə düzür. Oğlu bəh-bəhlə yeməyə başlayır. Bu arada gəlini, nəvələri də gəlirlər. Fatma xala həvəslə: -Gəlin, nənə qurban, gəlin isti-isti yeyin bunlardan. Nəvələri isə yenə də ona qəribə bir nəzər salır və deyirlər:- Yox ay nənə, bunlar nədir ki, belə? Biz bunu necə yeyə bilərik?

Söhbətin bu yerində gəlin nə desə yaxşıdır:

-Ay uşaqlar, bunlar kəndskoy burqerlərdir də.

Uşaqlar:

-Ay ana, sən nə danışırsan? Bunların burqerlə heç əlaqəsi yoxdur.

Ana:

-Təxmini oxşadıram da.

Uşaqlar:

-Biz burqeri heç nə ilə dəyişə bilmərik. Onun yerini belə ot-alafdan olan yeməklər tuta bilməz.

Söhbətə ata qarışır:

-Ay yazıq uşaqlar, ağzınızın dadını bilmirsiniz. Bunlarda olan vitamin, ətir, dad sizin yediyiniz o mənşəyi məlum olmayan burqerlərdə ola bilməz. Hər gün ya bayırda yeyirsiniz, ya da evə sifariş edirsiniz. Burqer yeməkdən axırda birtəhər olacaqsınız.

Gəlin:

-Niyə elə deyirsən, burqerin bu “kəndskoy” yeməkdən nəyi pisdir ki? Səhərdən anan yerə oturmayıb. Amma bir zəngdir, edirsən, 10 dəqiqəyə qapıda olur. Dadına da doymursan. Bu sözlərdən sonra Fatma xala ilə oğlu bir-birinə baxır və başlarını bulayırlar.

***

Daha nə deyə bilərdilər ki... Burqeri kəndin təbii göy-göyərtisi ilə bişən kətə-qutabdan üstün tutan, bunun mahiyyətini anlamayan, kənddən gəlib şəhərdə dəyişən anaya və onun tərbiyə verdiyi uşaqlarına başqa nə demək olardı ki...

***Mətanət Məmmədova***

# “Nar” eşitmə məhdudiyyətli insanlar üçün yeni iş imkanları yaradır




**Nitq və eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasına xüsusi önəm verən “Nar”, “Təlim Məktəbi” layihəsi çərçivəsində 20 xanıma manikür peşəsi üzrə təlimlər təşkil edib. Təlimləri uğurla başa çatdıran xanımlar peşə üzrə sertifikatlarla təmin olunub, eyni zamanda mobil operator onlara öz kiçik bizneslərinə başlamaq üçün lazımi manikür avadanlığı dəstləri də hədiyyə edib. Layihənin əsas məqsədi də məhz iştirakçıların maliyyə azadlığını təmin etmək və onları öz ayaqları üzərində dura bilən fərdlər olaraq cəmiyyətə qazandırmaqdır.**

Əksər iştirakçılar artıq bu sahə üzrə əmək fəaliyyətinə də başlayıblar. Bu müsbət tendensiyanın cəmiyyətə faydasına diqqət çəkən “Nar”ın ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Əziz Axundov bildirib:“Mobil operator olaraq, əsas məqsədimiz insanların daima ünisyyətdə qalmalarına dəstək olmaqdır. Bu baxımdan eşitmə və nitq məhdudiyyəti olan insanlara dəstək Korporativ Sosial Məsuliyyət strategiyamızın əsas hissəni təşkil edir. Uzun illərdir ki, Nar bu insanların yeni peşələrə sahib olmaları, yeni biliklərin əldə edilməsi və əlbəttə ki, maliyyə azadlıqlarının təmin edilməsi üçün önəmli addımlar atır. Bu layihələri hər zaman davam etdirmək fikrindəyik”.



“Təlim Məktəbi” “Eventiada IPRA Golden World Awards” (Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası Qızıl Dünya Mükafatı) müsabiqəsində “Ən yaxşı sosial layihə” nominasiyasında qalib olub. Mobil operatorun gerçəkləşdirdiyi digər sosial layihələr barədə ətraflı buradan məlumat əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Müəllimlər niyə hoqqa verir?

*Yerlərdə sürünən təhsil, "vor-zakon" trendinə qoşulan müəllimlər, virtual köləliyə alət edilən şagirdlər*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



***Sosial şəbəkə trendləri günümüzdə dəbdir. Biri bir trend başlatsın, hamı özünü o axına qoşulmağa məcbur hiss edir. Böyük sürətlə başlayan və hər kəs tərəfindən tətbiq edilən sosial media trendlərinə yeni biri əlavə olundu. Son günlərin trendi də müəllim və şagirdlərin pilləkanlarda düzülərək qəribə pozalarda şəkil çəkdirmələri, bu görüntüləri əcaib musiqilər ilə montaj etmələridir.***








### İnsanlar niyə trendə qoşulmağa özünü məcbur hiss edir?

Əgər trendlər üçün bir bənzətmə fikirləşsək ən uyğun ifadə "sabun köpüyü" ifadəsi olar. Yəni trend deyilən hərəkətlər bir anlıq məşhurluq və anında unudulan davranışlardır, eynilə üfürülən köpüyün yox çıxması kimi. Trendlərin bu dərəcədə populyarlaşması texnologiyanın inkişafı ilə bağlıdır. 3-5 il əvvələdək başqa davranışlar dəb idi, gənclər şəhərdə flaşmoblar keçirirdi, rəqs, kitab oxumağa təşviq, yardımlaşma temalı trendlərdən gedir söhbət. Günümüzün trendi də hər gün dəyişir. Bir gün qırmızı alt paltarında foto çəkib paylaşmaq dəb olur, bir gün kamera qarşısında dirsəyini yalaya bilmək bacarığı yoxlanır, bir gün uşaqlıq fotosu nümayişi trendi dəb olur.

Sosial şəbəkələrdən istifadənin kütləviləşməsi çox sahəni iflic etdi, mətbuat ən çox zərər görən sahə oldu. Fotoqraflıq, reportyorluq kimi peşələri bir smartfon sıradan çıxardı. Smartfonların hər gün yeni seriyasının buraxılması fotoqrafiya sənətini öldürdü. Bu təkcə sosioloji təhlükə deyil, həmçinin, iqtisadi və psixoloji təsirləri də var. Hedonizm və narsisizm ön plana çıxır, insanlar bir-birini təqlid edir, virtual yamsılama üsullarından həzz alır.

Günümüzdə smartfon terroruna məruz qalan nəsil var. Bu, 2000-ci ildə və ondan sonra doğulan nəsildir, fenomen videolarını təqlid edən və eyni videoları çəkməyə çalışan nəsil. Onlar texnologiyadan istifadə etməyi yaxşı bacarırlar, amma rəqəmsal savadları yoxdur. 11-12 yaşlı uşağın smartfonu anasından və atasından daha yaxşı istifadə etməsi, hər cür məlumatı rahatlıqla əldə edə bilməsi onun həmin məlumatlardan düzgün istifadə edəcəyi anlamına gəlməməlidir. O, əldə etdiyi məlumatlardan necə istifadə edəcəyi ilə bağlı məlumatlı deyil. Rəqəmsal savadlılıq təhsili uşaqlarla yanaşı ailələrinə də verilməlidir.

### Məhrəmiyyət internetdə niyə paylaşılır?

İndi hamı hər şeyi kamera önündə edir, özünü buna məcbur hiss edir. İnstaqramda övladının bütün məhrəmiyyətini paylaşan analar, bütün gününü kamera qarşısında keçirən gənclər, həyat yoldaşı ilə məhrəm səhnələr çəkib paylaşan kişilər. Vəziyyət o həddə çatıb ki, yataq otağından belə canlı yayım açıb sosial şəbəkədə yayımlayanlar kütləviləşib.

Əvvəllər insanlar evlərində, həyatlarında etdiklərini bu qədər nümayiş etdirmirdilər. İnternetin həyatımıza girdiyi ilk illəri nəzərdə tuturam. İllər keçdikcə insanlar virtual asılılığa istiqamətləndilər, indi əksəriyyət tamamilə texno-kölədir. Gündəlik həyatındakı hər addımını, yediyini, içdiyini, geydiyini kameraya çəkib paylaşanlar sürətlə artır. Kamera qarşısında pul üçün soyunanlar, ədəbsiz hərəkətlər edənlər, daha çox baxış qazanmaq uğrunda bütün dəyərlərindən keçən kütlə yetişib.

Sosial şəbəkələr həyatımızın mərkəzinə pərçimlənəndən sonra ənənəvi media da sıxışdırılıb. Əgər 10 il əvvəl desəydilər ki, zaman gələcək, hər kəsin öz saytı, səhifəsi olacaq, qəribə səslənərdi. Ənənəvi medianın qızıl dövründə bəlli media orqanları, jurnalistlər var idi və cəmiyyət onların yazısı ilə aydınlanırdı. Jurnalistin məsuliyyəti vardı, çünki onu və yazısını ciddi qəbul edən böyük bir oxucu, tamaşaçı kütləsi vardı. Amma youtube həyatımıza girəndən sonra hər kəs bir kanal açıb öz xəbərini istehsal etməyə başladı. Nəticədə at izi it izinə qarışdı, nə doğru xəbər bilindi, nə yalan. Əlində smartfon telefonu olan hər kəs özünü jurnalist, reportyor hesab edir, istədiyini çəkir, istədiyini yayımlayır. Nə insan məhrəmiyyəti diqqətə alınır, nə etik davranış.

### Trend uğruna ölənlər olur

Trendlər bəzən çox təhlükəli ola bilər. Təhlükəli yerlərdə çəkilən foto-trendlər səbəbindən faciəvi şəkildə ölən, yaralanan, şikəst qalan insanların varlığından əksəriyyətimiz xəbərdarıq. İnsanları təəccübləndirmək istəyən nəsil bir-biri ilə yarışa girib, əcaib geyim, qəribə makiyaj nümayiş etdirən gənclər çoxalıb.

Trendlərin sürətlə yayılmasının kökündə qısamüddətli pul qazanmaq istəkləri dayanır. Əvvəllər imtahanlarda aldıqları qiymətlərlə yarışan gənclər indi paylaşdıqları foto və trendlərin bəyənmə və izləyici sayı ilə yarışır. Sosial şəbəkə kanalları monoton insanların formalaşmasına səbəb olub, o insanlar internet məkanında bir növ monopoliya yaradıblar.

İnsanlar bunu başqalarından fərqlənmək, fərqlənmək üçün edirlər, amma əslində, təqlid edirlər. Çünki trend təqliddir. Başqa bir şəbəkə istifadəçisinin etdiyi hərəkətin eynisini etmək trend olur. Trendlə fenomen olanlar da olur, əsl məqsəd də budur – asan yolla pul qazana bilmək istəyi. Amma hər yeni fenomen əvvəlkini unutdurur. Cəmiyyət olaraq sosial mediaya həddən artıq aludə olmuşuq. Bu vəziyyət bizi texno-qul, texnoloji kölə vəziyyətinə saldı. Trendlərə qoşulma məcburiyyəti hiss edənlərin demək olar ki, hamısı texnologiyanın kölesi olan insanlardır. İnsanlar əslində bunun zərərlərini bilirlər; amma təəssüf ki, axından dala qalmamaq istəyi güc gəlir. Yeganə həll yolu düzgün təhsil və əlbəttə ki, rəqəmsal savadlılıq haqqında məlumatlılığın aşılanmasıdır.

### Sosial şəbəkə trendləri könüllü köləlikdir

Yəqin ki, amerikalı rəssam Endi Uorholun unudulmaz sitatını eşitmisiniz: "Bir gün hamı 15 dəqiqə məşhur olacaq". Həmin gün dövrümüzdədir, hamı trendlərlə bir neçə dəqiqə də olsa məşhur ola bilir. Amma müəllimlərin bu trendlərə alət olması xoş mənzərə deyil. Müəllimlər müəllim olmaqdan uzaqlaşıb tiktoker olmaq yolunda sürətlə irəliləyir. Axı siz müəllimsiniz, şoumen, fenomen deyilsiniz.

Təhsil yerdə sürünür, uşaqlar savadsızlaşır, repetitor olmasa ali məktəbə qəbul statistikası sıfra düşəcək, müəllimlər bunu trend edib ictimailəşdirməkdənsə pilləkanlara düzülüb şəkil çəkdirir. Elmi nailiyyətlər trendinə qoşulun, olimpiada trendlərinə qoşulun, haqqı tapdanan həmkarlarınızın müdafiə trendini yaradıb ona qoşulun.

60 dil bildiyi halda bir direktorun hökmünə qurban olub işsiz qalan azərbaycanlı poliqlot müəllim İbrahim Cəfərovun müraciətinə qoşulmayan həmkarları indi nə məqsəd güddüyü bilinməyən trendə qoşulmaq uğrunda mübarizə aparır. Sosial şəbəkələrdə, təhsil qruplarında bu cür paylaşımların ardı-arası kəsilmir.

Şagirdlərin motivasiyası üçün çəkildiyini iddia edənlər, şagirdə summativlərdə, buraxılış və qəbul imtahanlarında "necə tiktoker olmaq olar?" sualı verilməyəcək. Təhsilə verin motivasiyanı, bilik yarışları ilə, olimpiadalarla verin. Nümunə olun ki, şagirdlərinizdən də nümunə görün.

***Lalə Mehralı***

SON SƏHİFƏ
Səs
15 aprel
2023-cü il

# Ailə qurarkən yaş fərqi önəmlidir?

***“İlk olaraq bildirmək lazımdır ki, evlilik ümumiyyətlə çox məsuliyyətli bir qərardır. Mental dəyərlərimizə əsasən çox zaman kişinin qadından ən azı 3-4 yaş böyük olması arzuolunan haldır. Əslində isə insanın fizioloji yaşı deyil, psixoloji yaşı əsas götürülməlidir”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman-klinik psixoloq Narınc Rüstəmova deyib.***

Onun sözlərinə görə, digər nöqteyi-nəzərdən yanaşsaq, evlilikdə insanın psixoloji yaşı ilə bərabər emosional, intellektual yaşı da vacib məsələdir: ”Ümumiyyətlə insanın yaşını iki nöqteyi-nəzərdən dəyərləndirmək lazımdır. Birincisi emosional yaş (EQ), digəri isə İQ dediyimiz zəka, intellek yaşıdır. Qeyd etmək olar ki, insanın cəmiyyətdə şəxsiyyət kimi formalaşmasında zəka yaşı (İQ) ilə bərabər emosional yaşı (EQ) da xüsusi rola malikdir. Başqa sözlə ifadə etsək EQ insanların duyğu yaşı, ruh yaşıdır. Emosial yaş insan beyninin sağ yarımkürəsinin aktivliyi nəticəsində yaranır, əksinə zəka yaşı (İQ) isə beyinimizin sol yarımkürəsinin aktivliyi ilə ortaya çıxır. İQ dediyimiz zəka yaşı insanın anlama bacarığı, məlumatları analiz-sintez etmə qabiliyyətini formalaşdırır. Bəzən insanların fizioloji yaşı ilə psixoloji yaşı üst-üstə düşməyə bilir. Belə ki, EQ və İQ yaşı normadan aşağı olan kifayət qədər insanlar var. Məsələn elə insan var ki, 28 yaşı var, ancaq biz onun zəka yaşını yoxlasaq, 18-20 yaşında olduğunu görərik. Bu da sözsüz ki, onun yaşam tərzində özünü göstərəcək. Belə ki, ətrafında baş verən hadisələrə, evliliyə, ailə münasibətlərinə o 28 yaşlı bir insanın düşüncəsi ilə deyil, 18 yaşlı insanın baxış bucağı ilə yanaşacaq. Bu səbəbdən də qeyd etmək istəyirəm ki, evlilik öncəsi psixoloji hazırlıq diqqət edilməsi nüansdır. Belə ki, insanların bu münasibətə başlamamışdan əvvəl və ya evlilik öncəsi psixoloji müayinədən keçməsi əsas şərtlərdən biri kimi göstərilir. Bu halların əksi ilə də qarşılaşmaq mümkündür, yəni EQ və İQ yaşı fizioloji yaşından çox olan insanlar da var.





Cütlüklər arasındakı münasibətlərin və yaşanan problemlərin psixoloqlar tərəfindən tənzimlənməsi onların gələcək həyatına müsbət mənada təsir göstərə bilər. Cütlüklər arasında yaş fərqi kifayət qədər çox olan ailələrdə uğurlu münasibətin olduğu halına da rast gəlirik. Məsələn, fizioloji olaraq fərdlər arasında 10 yaş fərq olsa da, biz onların intellektual (İQ) və emosional (EQ) yaşlarını yoxlayanda bu yaşlarının bir-birinə çox yaxın olduğunun şahidi ola bilərik.

Tibbi baxımdan yanaşsaq və həkimlərin tövsiyəsini nəzərə alsaq, fizioloji olaraq, qadının kişidən bir neçə yaş kiçik olması psixoloji, fiziki baxımdan daha məqsədəuyğun hesab edilir. Çünki qadınlarda fizioloji olaraq dəyişikliklər baş verir və bu da irəli yaşlarda onların ana olmağına manea olar bilər. Ortalama götürdükdə, evlilikdə cütlüklər arasında 5 yaş fərqin olması normal hesab edilir. Ancaq yenidən vurğulamaq istəyirəm ki, burada fərdlərin psixoloji vəziyyəti, emosional və intellektual yaşları vacib məsələdir.

**PSİXOLOQ AYDINLIQ GƏTİRDİ**

Son olaraq vurğulamaq istərdim ki, ailə kiçik bir dövlətdir və çalışmalıyıq ki, onun təməlləri möhkəm olsun. Bu da ancaq sevgi, bir-birini anlama, sevərək olduğu kimi qəbul etmək və qarşılıqlı hörmət şəklində ola bilər”.

***Səbinə Hüseynli***



# Aqrar sığorta: üstün cəhətləri nədir?

**“Aqrar sığortanın tətbiqi ilə kənd təsərrüfatı sahəsində çalışan hüquqi şəxslər və ya iri holdinqlər öz yatırımlarının dövlət mexanizmi tərəfindən qorunması imkanı əldə ediblər. Bu xidmətlər Azərbaycanda son iki ildir ki, tətbiq edilir”. Bu sözləri SİA-ya açıqlamasında Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov deyib.**

Onun sözlərinə görə, dövlət hər şəkildə fermerlərə dəstək verir ki, öz istehsalatlarına davam etsinlər: “Aqrar sığorta məhz qoyulan investisiyaların qorunması prizmasından çox vacibdir. Bu sahədə çalışan fermerlər açıq səma altında bir istehsalat qururlar. Əlbəttə ki, bu heç nə ilə qorunmayan bir istehsalatdır. Aqrar sığorta fermerlərə təhlükəsiz investisiya mühitinin yaratmağı təmin edir. Bu sistem hələ yeni başlayıb. Artıq üçüncü aktiv fəaliyyət ilinə keçmişik. Ötən iki ili təhlil etdikdə görürük ki, müsbət dinamika müşahidə edilir”.

Sədr sözlərinə davam edərək bildirib ki, sığorta haqlarının artımı bu müsbət dinamikanın nümunəsidir: “Sığorta haqları ötən ilə nisbətən 21% artıb. 2021-ci ildə ölkə ərazisində istehsal olunan 350 milyon manat dəyərində kənd təsərrüfatı məhsullarını sığortalamışdıq. 2022-ci ildə artıq bu rəqəm 500 milyonu ötüb. Bu o deməkdir ki, istehsal olunan məhsulların 60-70% həcmində irəliləyiş əldə etmişik. Bu xidmətlər yeni yarananda insanlar ona bir qədər şübhəli yanaşırdılar. İndi isə bu irəliləyişlər onu göstərir ki, insanlar aqrar sığortaya etibar etməyə başlayıb”.

***Ləman Əlizadə***

# Psixoloqlar pasiyentlərin sirlərini necə qoruyub saxlayır?



“Bəzən görürsünüz ki, qeyri-peşəkarlar çalışmaqla bərabər, hətta psixoloq adı ilə səhifə açıb işlədirlər. Bəziləri də pasiyentlərinin sirlərini “Əsəbləşdim dedim” adı altında açıb tökürlər. Unutmayın ki, insanların taleyi ilə oynamaq olmaz”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, psixoloqa danışdığı halda hər bir insanın məxfiliyi var: “O dərk edir ki, məsələni psixoloqa danışır. Məsələn, problemi heç kimin bilməyini istəmir və psixoloqa danışır ki, məsələ sakit şəkildə həll olunsun. Məxfiliyin qorunması vacib məsələlərdən biridir. Hətta birinin ginekoloji probleminin belə anonimliyini qorumalısan. Əks halda həmin insana çox böyük bir zərbə vurursan. Anonimlik pozulduğu halda hüquq mühafizə orqanlarına müraciət etmək olar. Anonimliyi pozulan pasient psixoloqdan təzminat da tələb edə bilər”.

Aytən Ələkbərova sözlərinə belə davam edib: “Pasiyentin sirrini ailə üzvü də daxil olmaqla heç kimə danışmaq olmaz. Bəs, biz bu sirləri necə qoruyub saxlayırıq? Gündə 8-10 nəfərə yaxın insanın həyat tarixçəsini dinləyirik. 45-50 dəqiqə müddətində biz onlardan nə dinləyiriksə, o orada da qalır.

Biz ali məktəb zamanından psixoloq andımızı şüurumuza yerləşdirmişik. Amma hər hansı bir yeniyetməni dinləyiriksə, yaxud gəncin tükürpədici problemləri varsa, psixoloqlar arasında pasientin adını çəkməmək şərti ilə müzakirə edilir. Bunu mən və digər psixoloqlar da edərək, bir-birimizdən dəstək alırıq. Lakin qəti şəkildə ad çəkmirik. Xəstəliyi, sindromu, problemi müzakirə etmək lazımdır, insanı yox. Əks halda bütün pasiyentlərin haqqı var ki, onların şəxsi sirləri danışıldığı halda təzminat istəsinlər. Çünki bu onların o dərəcə psixi halətini poza bilər ki, bu psixatrik xəstəyə belə çevrilə bilərlər”.

***Ayşən Vəli***

# Arda Turan baş məşqçi oldu



*Futbol üzrə Türkiyə millisinin və “Qalatasaray”ın sabiq futbolçusu Arda Turan məşqçiliyə başlayıb. Qol.az "Hürriyet"ə istinadən xəbər verir ki, o, 1-ci liqada mübarizə aparan "Eyüpspor"u çalışdıracaq.*

Ardanın bazar günü ”Eyüpspor”un ”Göztəpə” ilə oyununda komandaya rəhbərlik edəcəyi bildirilib. Klubun vitse-prezidenti Fatih Kulaksız da məlumatı təsdiqləyib. O, ”Xəbərlər doğrudur, Arda Turan komandamızın yeni baş məşqçisidir” deyib. Qeyd edək ki, ötən il futbolçu karyerasını başa vuran Arda Turan ”Qalatasaray”, ”Atletiko”, ”Barselona” kimi nüfuzlu klublarda oynayıb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000